QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



*"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir*


# SƏS

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 199 (5671) **20 oktyabr** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiymәti 40 qəpik**


# İzmirdə "Star" neft emalı zavodunun açılış mərasimi olub

*Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan mərasimdə iştirak ediblər*

*"Bizim gücümüz birliyimizdədir. Bu gün Azərbaycan və Türkiyə dünya miqyasında qardaşlıq, həmrəylik nümunəsi göstərirlər"*

Səh 2




10

Serj Sarkisyan 2008-ci ilin mart qırğınlarına görə məhkəməyə verilib



7

"Star" Azərbaycan və Türkiyəyə nə vəd edir?



5

Yeni Azərbaycan Partiyasının nümayəndə heyəti Çin Xalq Respublikasında səfərdədir



# İzmirdə "Star" neft emalı zavodunun açılış mərasimi olub

## *Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan mərasimdə iştirak ediblər*




*İlham Əliyev: "Bu, bir daha onu göstərir ki, biz qarşımıza qoyduğumuz bütün hədəflərə uğurla çatırıq"*




***Oktyabrın 19-da Türkiyənin İzmir şəhərində "Star" neft emalı zavodunun açılış mərasimi keçirilib. AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan mərasimdə iştirak ediblər.***

Azərbaycan Prezidenti İlham Əliyevi Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan qarşıladı. Prezidentlər terrasdan "Star" neft emalı zavodunun ərazisini seyr etdilər. Dövlət başçıları idarəetmə ofisi ilə tanış oldular.

Prezidentlərə "Star" neft emalı zavodunda görülən işlər barədə məlumat verildi.

Bildirildi ki, "Star" zavodunun ümumi neft emalı gücü 10 milyon ton təşkil edəcək və müəssisənin əsas xammal tədarükçüsü kimi Azərbaycan Respublikası Dövlət Neft Şirkəti - SOCAR çıxış edir. SOCAR-ın 6,3 milyard dollar kapitalla Türkiyənin İzmir şəhərinin Əliağa rayonunda, "Petkim" neft-kimya kompleksinin ərazisində inşa etdiyi bu zavodda avqustdan etibarən sınaq məqsədilə xam neft emalına başlanılıb. Zavoda ilk neft yükü məhz Azərbaycandan olmaqla 80 min ton "Azeri Light" markalı neft çatdırılıb. Zavod 5 milyon ton dizel yanacağı istehsal etmək imkanına malikdir və Türkiyənin idxalının 40 faizə düşməsinə səbəb olacaq. Həmçinin mayeləşdirilmiş qazın idxal səviyyəsi də 70 faizə enəcək. Zavod ildə 1,6 milyon ton təyyarə yanacağı istehsal etməklə Türkiyənin tələbatını tam ödəyəcək. "Star" neftin qiymətindən asılı olaraq hər il 6-8 milyard dollarlıq ticarət həcmi formalaşdıracaq. Layihənin həyata keçirilmə müddətində burada 19 min 500 işçi çalışıb. Zavod istehsala başladığı zaman 1100 nəfər yeni iş yeri ilə təmin olunacaq.

"Star" neft emalı zavodunun açılış mərasiminin aparıcısı 6,3 milyard dollar dəyərində olan və bu gün reallaşan 4 nəhəng layihənin əhəmiyyəti haqqında ətraflı məlumat verdi. Sonra layihənin əhəmiyyəti haqqında videoçarx nümayiş olundu.

SOCAR-ın prezidenti Rövnəq Abdullayev mərasimdə iştirak edən Azərbaycan və Türkiyə prezidentləri İlham Əliyevə və Rəcəb Tayyib Ərdoğana layihənin həyata keçirilməsinə verdikləri dəstəyə görə təşəkkürünü bildirdi. Ulu öndər Heydər Əliyevin "Azərbaycan-Türkiyə dostluğu əbədi və sarsılmazdır" sözlərini xatırladan Rövnəq Abdullayev diqqətə çatdırdı ki, müxtəlif layihələrə yatırılan sərmayələr nəticəsində SOCAR Türkiyənin ən böyük investoruna çevrilib.

"Star" neft emalı zavodu haqqında və burada istehsal ediləcək məhsullar barədə danışan SOCAR-ın prezidenti yaxın gələcəkdə Petkimdə yeni əhəmiyyətli layihənin reallaşdırılmasına başlanılacağını qeyd edib.

Türkiyənin energetika və təbii sərvətlər naziri Fatih Dönməz Türkiyə-Azərbaycan dostluğunun və işbirliyinin rəmzi olan bu hadisənin önəmindən danışaraq iki ölkə arasında qardaşlığın möhkəm bağlara əsaslandığını vurğuladı. Azərbaycan və Türkiyə prezidentlərinin dəstəyi ilə ölkələrimizin enerji sahəsində əhəmiyyətinin daha da artdığını deyən energetika və təbii sərvətlər naziri "Star" neft emalı zavodunun verəcəyi faydanı qeyd etdi. Bu zavodun Avropa, Yaxın Şərq və Afrika bölgələrində ən böyük müəssisələrdən biri olduğunu deyən Fatih Dönməz həyata keçirilən layihələrin Azərbaycanın və Türkiyənin bölgədəki gücünü daha da artıracağını vurğulayıb.

Türkiyənin xəzinə və maliyyə naziri Berat Albayrak TANAP layihəsinin açılışından 4 ay sonra dünyaya örnək olacaq daha bir önəmli layihənin açılışına toplaşdıqlarını qeyd edərək, Türkiyə və Azərbaycan arasındakı dostluğu və birliyi dünya üçün nümunə adlandıraraq dedi:

- Bu gün burada yaranan mənzərə dünyanın içində olduğu bədbinliyə, qeyri-müəyyənliyə ən gözəl həll formasını təqdim edir. Dünya Türkiyə ilə Azərbaycan arasındakı dostluğu, birliyi örnək götürməlidir. Qarşılıqlı uzaqgörənliklə ortaq hədəflərə doğru həmrəyliklə hərəkət etdikdə regional və qlobal sabitliyə, əmin-amanlığa necə böyük töhfə verməyin mümkün olduğu bu mənzərə sayəsində çox aydın görünür. Bu gün bu mənzərə dünyaya ölkələrin öz maraqlarının, iqtisadi sabitliklərini təmin etmələrinin yolunun himayəçilikdən və onu artırmaqdan, ticarət müharibələri aparmaqdan yox, həmrəylikdən, rəqabətlilik mühitindən, güclü əməkdaşlıqdan keçdiyini çox aydın şəkildə ortaya qoyur.

Türkiyə Böyük Millət Məclisinin sədri Binəli Yıldırım iki ölkənin ağıl, iradə və güc birliyi ilə reallaşan layihənin icrası münasibətilə təbriklərini çatdırdı, Türkiyə-Azərbaycan işbirliyinin əbədi olacağını vurğulayaraq dedi:

-Türkiyə-Azərbaycan münasibətlərini əbədiyyətə daşıyacaq bu və bu qəbildən ortaq layihələrimizlə qürur duyuruq. Bakı-Tbilisi-Qars, Bakı-Tbilisi-Ceyhan, TANAP, "Star" neft emalı zavodu və buna bənzər böyük olduğu qədər də strateji əhəmiyyət daşıyan bu layihələr təkcə Azərbaycan-Türkiyə qardaşlığını inkişaf etdirmir, eyni zamanda, bütün Qafqazın, Orta Asiyanın və hətta Avropanın enerji təhlükəsizliyinə də böyük töhfə verir. Ölkələrimizin iqtisadiyyatına böyük fayda verəcək neft emalı zavodunun İzmirimizə, Türkiyəmizə xeyirli-uğurlu olmasını diləyirəm.

**Ardı Səh. 3**



# İzmirdə “Star” neft emalı zavodunun açılış mərasimi olub

## *Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan mərasimdə iştirak ediblər*

**Əvvəli-Səh-2**

Mərasimdə Azərbaycanın və Türkiyənin imza atdığı mühüm layihələr barədə videoçarx nümayiş etdirildi. Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə çıxış ediblər.

Prezident İlham Əliyevin çıxışı:

-Hörmətli Türkiyə Cümhuriyyətinin Prezidenti, əziz qardaşım Rəcəb Tayyib Ərdoğan. Əziz dostlar.

Bu gün Türkiyə-Azərbaycan qardaşlıq əlaqələrinin tarixində çox gözəl və əlamətdar bir gündür. Biz “Star Rafineri”nin açılışına toplaşmışıq. Xatırlayıram ki, 7 il bundan əvvəl əziz qardaşım Rəcəb Tayyib Ərdoğanla burada, Əliağada “Star”ın təməlini qoyduq və bu gün bu nəhəng layihənin açılışını bərabər edirik. Bu, bir daha onu göstərir ki, biz qarşımıza qoyduğumuz bütün hədəflərə uğurla çatırıq. Bir daha onu göstərir ki, belə nəhəng layihələrin icrası üçün Türkiyə və Azərbaycan liderlərində güclü siyasi iradə var. Bu layihənin həyata keçməsinin əsas səbəbi Türkiyə-Azərbaycan dostluğu, qardaşlığıdır.

Mən yenidən qardaş Türkiyə torpağında olmağımdan çox məmnunam. Deməliyəm ki, bu il bu səfər mənim Türkiyəyə üçüncü səfərimdir. Əziz qardaşım Rəcəb Tayyib Ərdoğan bu il Azərbaycana iki dəfə səfər etmişdir. Bu səfərlərin sayı özlüyündə bir göstəricidir və onu göstərir ki, bu gün Türkiyə-Azərbaycan əlaqələri ən yüksək səviyyədədir. Bu da təbiidir, çünki əsrlər boyu biz birlikdə yaşamışıq, bir yerdə olmuşuq. Tarixin bəzi məqamları bizi bir-birimizdən ayırıb, amma bu, müvəqqəti xarakter daşıyırdı. Biz yüz il bundan əvvəl birlikdə idik, ondan əvvəlki dövrdə də birlikdə idik, bu gün də bir yerdəyik.

Mən qeyd etməliyəm ki, bu il Azərbaycan Xalq Cümhuriyyətinin 100-cü ildönümü münasibətilə əziz qardaşım Rəcəb Tayyib Ərdoğanla Bakıda ötən ay keçirilmiş möhtəşəm hərbi paradda iştirak etdik. Bu hərbi paradda Türkiyə və Azərbaycan əsgərləri çiyin-çiyinə Bakının ən böyük meydanı olan Azadlıq meydanından şərəflə keçmişlər. 1918-ci ilin 15 sentyabrı tarixi bir gündür. Məhz o gündə Bakı şəhəri Nuru paşanın komandanlığı altında Qafqaz İslam Ordusu və yeni yaradılmış Azərbaycan Milli Ordusu tərəfindən işğaldan azad edilmişdir.

Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması tarixi hadisə idi. Çünki ilk dəfə olaraq müsəlman aləmində Cümhuriyyət yaranmışdır. Ancaq Bakı, bizim qədim tarixi şəhərimiz işğal altında idi. Yeni yaradılmış hökumət Gəncə şəhərində fəaliyyət göstərirdi. Nuru paşanın komandanlığı altında Qafqaz İslam Ordusunun Gəncədən Bakıya möhtəşəm yürüşü və hərbi zəferi nəticəsində Bakı işğalçılardan azad edildi və öz sahibinə, Azərbaycan xalqına qaytarıldı. O gündən bir neçə gün sonra Bakı Azərbaycan Xalq Cümhuriyyətinin paytaxtı elan edilmişdir. Bu, unudulmaz tarixdir və yüz il o tarixdən sonra Türkiyə və Azərbaycan prezidentlərinin iştirakı ilə Bakıda təşkil edilmiş möhtəşəm mərasim bizim birliyimizi bir daha göstərdi. Göstərdi ki, bizim birliyimiz sarsılmazdır, bizim birliyimiz əbədidir, yüz il bundan əvvəl biz bir yerdə idik, bu gün də bir yerdəyik.

Onu da qeyd etməliyəm ki, dünən biz Azərbaycanda müstəqilliyimizin bərpasının 27-ci ildönümünü qeyd etdik. Azərbaycanın müstəqilliyini ilk tanıyan ölkə Türkiyə olmuşdur. Bu tarix çox şərəfli tarixdir. O gündən bu günə qədər biz daim bir yerdəyik. Siyasi əlaqələrimiz ən yüksək zirvəyə qalxmışdır. İqtisadi sahədə çox böyük işlər görmüşük. Həm Türkiyə, həm Azərbaycan iqtisadi baxımdan sürətlə inkişaf edən ölkələrdir. Fürsətdən istifadə edərək, qardaş türk xalqını əziz qardaşım Rəcəb Tayyib Ərdoğanın liderliyi ilə əldə edilmiş bütün uğurlar münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Türkiyə Prezident Ərdoğanın liderliyi sayəsində dünya miqyasında böyük gücə çevrildi. Türkiyə dünya miqyasında söz sahibidir. Bölgədə və dünyada Türkiyə ilə hesablaşırlar, Türkiyənin mövqeyi bir çox hallarda həlledici rol oynayır. Bu, bizi çox sevindirir. Çünki Türkiyənin gücü bizim gücümüzdür. Türkiyə nə qədər güclü olarsa, biz də bir o qədər güclü olacağıq. Bizim gücümüz birliyimizdədir. Bu gün Azərbaycan və Türkiyə dünya miqyasında qardaşlıq, həmrəylik nümunəsi göstərirlər. Mən dünyada ikinci ölkələr tanımıram ki, Türkiyə və Azərbaycan qədər bir-birinə bağlı olsunlar. Bu, bizim böyük sərvətimizdir. Məhz bu dostluq, qardaşlıq duyğuları əsasında biz nəhəng layihələri gerçəkləşdiririk.

“Star Rafineri”nin yaradılması üçün Azərbaycan 6,3 milyard dollar yatırım edib. Növbəti mərhələdə əlavə 700 milyon dollar yatırım ediləcəkdir. Bu, bizim xaricə qoyduğumuz ən böyük yatırımımızdır və bu, təbiidir. Bu gün “Star Rafineri”nin açılışı timsalında biz birliyimizin, həmrəyliyimizin, dostluğumuzun əlamətini görürük. Əminəm ki, bundan sonra da Türkiyə və Azərbaycan yalnız uğurlar yolu ilə gedəcək.

x x x

Sonra Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxış edib.

Prezident Rəcəb Tayyib Ərdoğanın çıxışı:

- Əziz qardaşım Prezident İlham Əliyev. Hörmətli qonaqlar, xanımlar və cənablar. Sizi ən səmimi hisslərlə, hörmət və məhəbbətlə salamlayıram.

Çıxışımın əvvəlində Azərbaycanı 18 oktyabr - Dövlət Müstəqilliyi Günü münasibətilə təbrik edirəm. Sovet İttifaqının dağılması ərəfəsində - 1991-ci il oktyabrın 18-də yenidən azadlığa qovuşan Azərbaycan dünəndən etibarən müstəqilliyinin 27-ci ilini geridə qoydu.

Əslində bugünkü Azərbaycan Türkiyə Respublikasının - bizim son dövlətimizin yaranması kimi qardaşlarımızın da ən gənc dövlətidir. Təxminən bir ay bundan əvvəl Bakının Qafqaz İslam Ordusu tərəfindən azad edilməsinin 100 illiyi tədbirləri ilə əlaqədar azərbaycanlı qardaşlarımızla bir yerdə idik. Bakıda şanlı Türkiyə və Azərbaycan ordularının hərbi paradını qardaşlarımızla birlikdə həyəcan və qürurla izlədik. Türkiyə hərbi birlikləri azərbaycanlı qardaşları ilə keçmişdə necə çiyin-çiyinə vuruşmuşdularsa, həmin gün də eləcə çiyin-çiyinə addımladılar. Bu parad iki ölkə arasında əməkdaşlığın, iki dövlət, bir millət olmağımızın göstəricisi idi.



Bu gün “Star” neft emalı zavodunun açılışı ilə dünyaya örnək olan əlaqələrimizi bir addım da inkişaf etdiririk. Azərbaycan ilə əlaqələrimizi təkcə cəsarət, təkcə siyasət miqyasında deyil, güclü iqtisadi çərçivədə davam etdiririk. Bu müəssisə enerji sahəsində həmrəyliyimizi gücləndirmək üçün uzun müddət gördüyümüz işlərin ən mühüm və konkret örnəklərindən biridir. Daha əvvəl Bakı-Tbilisi-Ceyhan neft boru kəməri və Bakı-Tbilisi-Ərzurum təbii qaz boru kəməri layihələrini həyata keçirmişdik. Bu ilin iyununda hər biri xüsusi əhəmiyyətə malik bu strateji layihələrə regional və qlobal miqyasda nüfuza sahib olacaq TANAP-ı da əlavə etdik.

> *Rəcəb Tayyib Ərdoğan: “Azərbaycan ilə əlaqələrimizi təkcə cəsarət, təkcə siyasət miqyasında deyil, güclü iqtisadi çərçivədə davam etdiririk”*



İndi açılışını etdiyimiz “Star” neft emalı zavodu ilə Azərbaycanla qardaşlıq əlaqələrimizin strateji miqyasını daha da gücləndirmiş oluruq. Türkiyə və Azərbaycanın liderliyi ilə həyata keçirdiyimiz hər bir layihə ölkələrimizin regional gücə çevrilmək qabiliyyətini qüvvətləndirməkdədir. Dünyanın ticarət müharibələri və böhranlarla sarsıldığı bir dövrdə bir-bir açılışını etdiyimiz bu layihələrin ölkələrimizi həm ayrılıqda öz qayələrinə, həm də ortaq hədəflərinə yaxınlaşdırdığına inanıram. Hər şeydən əvvəl 6,3 milyard dollarlıq bir sərmayə - “Star” neft emalı zavodu. Amma bundan başqa konteyner limanı, digər tərəfdən isə ilk açılışı ilə addımını atdığımız neft-kimya müəssisələri - bütün bunları ümumilikdə hesabladıqda söhbət təxminən 10 milyard dollarlıq sərmayədən gedir.

Eyni zamanda, bu neft emalı zavodu Türkiyənin ən böyük enerji layihəsidir. Bu baxımdan neft məhsulları idxalında hər il 1,5 milyard dollar məbləğində qənaət edilməsi, neft məhsullarında xaricdən asılılığın azalması hədəflənir. Gündə 214 min barrel, ildə 10 milyon ton xam neft emalı gücünə və 1,6 milyon kubmetr ehtiyat saxlama qabiliyyətinə malik zavodda dizel, nafta, təyyarə benzini və LPG kimi neft məhsullarının istehsalı həyata keçiriləcək.

Biz iki dövlət, bir millət olaraq öz ölkələrimizlə yanaşı, bölgədəki bütün xalqların təhlükəsizliyi, sabitliyi, firavanlığı və zənginliyi üçün çalışırıq. Ürəkdən istərdik ki, bölgədəki hər bir ölkə bu səmimiyyəti görə bilsin. Aralıq dənizinin şərq hissəsindəki karbohidrogen ehtiyatları ilə bağlı birtərəfli qaydada baş verən uğursuzluğa məhkum müxtəlif təşəbbüslərdən təəssüf edirik. Bu vəziyyət bölgəmizdə hələ də qeyri-sabitlikdən və gərginlikdən istifadə etmək siyasətindən əl çəkmək istəməyənlərin olduğunu göstərir. Türkiyə olaraq belə cəhdlərə qarşı cavabımızı həm bu yerdən, həm də diplomatik sahədə ən sərt şəkildə verməyi davam etdirəcəyik. Ölkəmizi və qardaşlarımızı nəzərə almayan heç bir təşəbbüsün uğur qazanmaq şansı olmadığını bütün tərəflər görəcəklər. Dostluğa, həmrəyliyə, birlikdə qazanmağa istiqamətlənmiş hər bir təklifə açıq olduğumuzu buradan bir daha bildirmək istəyirəm. Hazırda açılışını etdiyimiz müəssisə məhz bu faydalı əməkdaşlığın ən gözəl nümunəsidir. Hamını belə əməkdaşlığa dəvət edirik.

Hörmətli qonaqlar, Türkiyə və Azərbaycanın bölgəmizin təhlükəsizliyinin və sabitliyinin əsas aktorları olduğu artıq hamı tərəfindən qəbul edilməyə başlanıb. Bu iki ölkənin qoşulmadığı, razı olmadığı və dəstək vermədiyi heç bir layihə hədəfinə çata bilməz. Bununla yanaşı, Azərbaycan torpaqlarının 20 faizinin əsrin dörddəbiri qədər işğal altında qalması qəbul edilə bilməz. Ölkəmizin və Azərbaycanın bu münaqişənin həlli istiqamətində göstərdiyi təşəbbüslərə beynəlxalq ictimaiyyət daha səssiz qala bilməz. BMT başda olmaqla regional və qlobal problemlərin həlli üçün qurulan təşkilatların bu səssizliyi onların özlərini də məhvə sürükləyir. Haqqədalət duyğusundan uzaq, içi boş olan beynəlxalq qurumun heç bir cəmiyyətin və şəxsin gözündə etibarı qalmaz. Biz, beynəlxalq ictimaiyyətin Qarabağ məsələsi başda olmaqla dünyada ortaya çıxan haqsızlıqlara “Dur!” deməsini gözləyirik. Sabitliyin, əmin-amanlığın, rifahın təmin olunması qaydaları istisnasız bütün dövlətlər üçün tətbiq edilməzsə, kimsə gələcəyinə əminliklə baxa bilməz. Türkiyə və Azərbaycan olaraq biz istənilən vəziyyətdə və şərtlər altında inandığımız dəyərlər uğrunda apardığımız birgə mübarizəni davam etdirəcəyik. Allahın izni ilə bu müqəddəs mübarizəmizdə müvəffəqiyyət qazanacağıq.

x x x

Dövlət başçıları zavodun açılışını etdilər. Sonra birgə foto çəkdirildi.

Daha sonra prezidentlər “Əliağa-SOCAR”ın baş ofisinin binası ilə tanış oldular. Prezident İlham Əliyevə və Prezident Rəcəb Tayyib Ərdoğana burada yaradılan şərait barədə məlumat verildi. Ofis binası ən müasir avadanlıqla təchiz olunub. Burada İKT-ın ən son yenilikləri tətbiq edilib. Sonda xatirə şəkli çəkdirildi.

# Baş nazir Novruz Məmmədovun sədrliyi ilə Nazirlər Kabinetinin iclası keçirilib




***Oktyabrın 19-da Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədovun sədrliyi ilə "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il üçün iş planına" uyğun olaraq, Nazirlər Kabinetinin növbəti iclası keçirilib. AZƏRTAC xəbər verir ki, iclasda "Peşə təhsili müəssisələri şəbəkəsinin təşkili, idarə edilməsi və maliyyələşdirilməsinin təkmilləşdirilməsi ilə bağlı məsələlərin müzakirəsi üçün mövcud vəziyyət və qarşıda duran problemlər" və "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planı"nın icra vəziyyəti müzakirə olunub.***

Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan təhsil islahatlarının Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirildiyini vurğulayan Baş nazir Novruz Məmmədov, dövlətimizin başçısının 15 illik prezidentliyi dövründə təhsil sahəsinin də dinamik inkişaf etdiyini diqqətə çatdırdı. Xüsusən "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın qəbul edilməsi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təhsilə göstərdiyi böyük diqqət və qayğının təcəssümüdür.

Baş nazir ötən müddət ərzində ölkəmizdə təhsil sahəsində müsbət dinamikanın müşahidə olunduğunu, bir sıra əsaslı nailiyyətlərin əldə edildiyini dedi. Bildirdi ki, Strategiyada nəzərdə tutulmuş 5 mühüm istiqamət müəyyən edilib, hədəflərə nail olmaq üçün təhsilin müxtəlif pillə və səviyyələrinə, o cümlədən peşə təhsili pilləsinə aid dövlət sənədləri qəbul olunub, qanunvericilik bazasının təkmilləşdirilməsi məqsədilə tədbirlər görülüb. "Təhsilin inkişafına dair Dövlət Strategiyası"nın və "Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsi"nin əsas hədəfi ölkə iqtisadiyyatının inkişafına uyğun olaraq çevik və bazaryönümlü peşə təhsili sisteminin yaradılması və fəaliyyətinin təmin edilməsidir. Bu məqsədlə respublikada peşə təhsili müəssisələri şəbəkəsinin rasionallaşdırılması və təşkili ilə bağlı Nazirlər Kabineti müvafiq qərarlar qəbul edib.

Bununla yanaşı, müzakirə olunan sahədəki mövcud problemlərə də toxunan Baş nazir Novruz Məmmədov bildirib ki, müasir çağırışlara cavab verən, əmək bazarının tələblərinə uyğun peşələr üzrə kadr hazırlığını təmin edən ixtisaslaşdırılmış peşə tədris mərkəzlərinin yaradılması xüsusilə önəmlidir. Lakin peşə təhsili müəssisələri şəbəkəsinin optimallaşdırılması, yeni peşə təhsili mərkəzlərinin yaradılması bu tipli müəssisələrdə müasir tələblərə cavab verən maddi-texniki baza və təhsil şəraiti olmadan səmərə verə bilməz. Bu baxımdan "Təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın əsas məqsədləri ölkədə ən yeni texnologiyalara əsaslanan infrastruktura malik, keyfiyyət nəticələrinə və əhateliliyinə görə qabaqcıl mövqe tutan təhsil sistemini yaratmaq, Azərbaycanın təhsil sistemini iqtisadi cəhətdən dayanıqlı və dünyanın aparıcı təhsil sistemlərinin standartlarına uyğunlaşdırmaq, nəticə etibarilə ölkənin davamlı inkişafını təmin etməkdir. Sonra gündəlikdə duran hər iki məsələyə dair təhsil naziri Ceyhun Bayramovun məruzələri dinlənildi.

Məruzələr ətrafında əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev, Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədr müavini Namiq Babayev, Nazirlər Kabinetinin şöbə müdiri Musa Ələkbərov və başqaları çıxış etdilər. Ölkədə təhsilin inkişafı məsələlərinə dair aparılan ətraflı fikir mübadiləsindən sonra müzakirələrə yekun vuran Baş nazir Novruz Məmmədov nəzərdə tutulmuş tapşırıqların icrası ilə əlaqədar müvafiq göstərişlər verdi.

# ABŞ-ın "The Daily Caller" qəzetində Ermənistanın işğalçılıq siyasətinə dair məqalə dərc olunub

ABŞ Prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Con Boltonun gələn həftə Cənubi Qafqaza edəcəyi səfər fonunda Azərbaycanın Los-Ancelesdəki baş konsulu Nəsimi Ağayevin Ermənistan-Azərbaycan münaqişəsi barədə yazdığı məqalə ABŞ-da geniş oxucu kütləsinə malik, xüsusilə siyasi dairələrdə daim izlənilən "The Daily Caller" qəzetində dərc olunub.

Baş konsulluqdan AZƏRTAC-a bildiriblər ki, "Dağlıq Qarabağda davamlı sülhə ümid varmı?" başlıqlı məqalədə C.Boltonun gələn həftə Cənubi Qafqaza səfəri çərçivəsində Ermənistan-Azərbaycan münaqişəsinin müzakirə ediləcək əsas məsələlərdən biri olduğunu yazan baş konsul sözügedən münaqişənin regionda sülhə və sabitliyə əsas təhlükə olmaqda davam etdiyini vurğulayır.




N.Ağayev Ermənistan-Azərbaycan münaqişəsinin tarixi haqqında ətraflı məlumat verərək, Ermənistanın ölkəmizə qarşı həyata keçirdiyi işğalçılıq və etnik təmizləməyə dair konkret faktları diqqətə çatdırır və bu münaqişənin postsovet məkanında ən təhlükəli münaqişə olduğunu bildirir. Müqayisə üçün N.Ağayev qeyd edir ki, işğal olunmuş ərazilərimizin sahəsi Los-Anceles şəhərinin ərazisindən 13 dəfə böyükdür və ya ABŞ-ın Konnektikut ştatının ərazisinə bərabərdir.

Baş konsul bildirir ki, BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinə, həmçinin digər beynəlxalq təşkilatların müvafiq sənədlərinə baxmayaraq, Azərbaycan ərazilərinin Ermənistan tərəfindən hərbi işğalı hələ də davam edir. O, münaqişənin həllində ən əsas maneənin Ermənistanın işğal olunmuş ərazilərimizdən öz qoşunlarını çıxarmaqdan imtina etməsi və məcburi köçkünlərin öz doğma torpaqlarına qayıtmalarına imkan verməməsi olduğunu vurğulayır.

N.Ağayev qeyd edir ki, ABŞ-ın Ermənistandakı səfiri Riçard Mils də bu yaxınlarda Ermənistan mətbuatına verdiyi müsahibəsində münaqişənin həlli üçün, ilk növbədə, Azərbaycanın işğal olunmuş ərazilərinin geri qaytarılmalı olduğunu bildirib.

Baş konsul daha sonra Ermənistanın demoqrafik böhran yaşadığını, on minlərlə erməni gəncinin ölkəni tərk edərək xarici ölkələrə mühacirət etdiyini, bu xüsusda 1991-ci ildən bəri təxminən 1,5 milyon insanın Ermənistanı tərk etdiyini vurğulayır. Ermənistanda yoxsulluq həddinin 30 faizə yaxınlaşdığını və bu göstəricinin Cənubi Qafqaz ölkələri arasında ən yüksək rəqəm olduğunu qeyd edən N.Ağayev BMT-nin statistikasına əsasən 2050-ci ilədək Ermənistanı daha 1 milyon insanın tərk edəcəyini bildirir.

N.Ağayev Ermənistandan fərqli olaraq, Azərbaycanın regionda ən güclü iqtisadiyyata sahib olduğunu, çoxlu sayda nəhəng enerji və qitələri birləşdirən nəqliyyat layihələrini gerçəkləşdirdiyini və qlobal enerji təhlükəsizliyinə önəmli töhfələr verdiyini yazır. Bundan başqa, o, ABŞ-ın regionda əsas strateji tərəfdaşı olan Azərbaycanın Birləşmiş Ştatların beynəlxalq terrorizmlə mübarizə və enerji mənbələrinin şaxələndirilməsi səylərinə güclü dəstək verdiyini qeyd edir. N.Ağayev, həmçinin ölkəmizdə müsəlmanlar, xristianlar və yəhudilərin birgə sülh, harmoniya və qarşılıqlı hörmət şəraitində yaşadıqlarını diqqətə çatdırır. Diplomat davamlı sülhün əldə edilməsi üçün Ermənistanın ölkəmizə qarşı təcavüzkar siyasətindən əl çəkməli və konstruktiv şəkildə danışıqlarda iştirak etməli olduğunu bildirir.

Sonda Nəsimi Ağayev ABŞ-ın Azərbaycan və Ermənistan arasında davamlı sülhün və anlaşmanın əldə edilməsi istiqamətində səylərini artıracağına ümidvar olduğunu qeyd edir.



# Yeni Azərbaycan Partiyasının nümayəndə heyəti Çin Xalq Respublikasında səfərdədir



Yeni Azərbaycan Partiyasının nümayəndə heyəti oktyabrn 18-dən Çin Xalq Respublikasında səfərdədir. YAP İcra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri, Azərbaycan-Çin parlamentlərarası əlaqlər üzrə işçi qrupunun rəhbəri Siyavuş Novruzovun rəhbərlik etdiyi nümayəndə heyətinə YAP İdarə Heyətinin üzvü, Milli Məclisin Aqrar siyasət komitəsinin



sədri Eldar İbrahimov, Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov, Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Ağalar Vəliyev, Milli Məclisin deputatı, YAP Xətai rayon təşkilatının sədri Hüseynbala Mirələmov, YAP Suraxanı rayon təşkilatının sədri Vüqar Seyidov və YAP Gənclər Birliyinin sədri Seymur Orucov daxildir.

Səfər zamanı Azərbaycan və Çin parlamentlərarası əlaqələr üzrə işçi qruplarının görüşü olub. İki ölkə arasında münasibətlərin yüksək səviyyədə olduğunu bildirən Siyavuş Novruzov əlaqələrin yüksələn xətlə inkişaf etdiyini bildirib. S.Novruzov deyib ki, əlaqələrin inkişafında qarşılıqlı rəsmi səfərlərin, imzalanan ikitərəfli sənədlərin mühüm rolu var.

Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyasının əlaqələrindən bəhs edən YAP İcra katibinin müavini partiyalar arasında əməkdaşlığın əhəmiyyətini vurğulayıb. O, həmçinin iki ölkə parlamentlərinin əməkdaşlığlndan da ətraflı bəhs edib, parlamentlər arasında əlaqələrin daim inkişaf etdiyini qeyd edib. S.Novruzovun sözlərinə görə, siyasi əlaqələrlə yanaşı ölkələrimizin iqtisadi-ticarət əlaqələri də davamlı olaraq genişlənməkdədir.

Çin parlamentinin Azərbaycan parlamenti ilə dostluq qrupunun rəhbəri Van Syankuy Çinin Azərbaycanla əlaqələrə böyük önəm verdiyini qeyd edib. İki ölkə arasında dosluq münasibətlərinin yüksək səviyyədə olduğunu deyən Van Syankuy parlamenlərin əlaqlərinin inkişafından məmnunluq ifadə edib. Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.



# "Heydər Əliyev və Azərbaycan tarixi" bilik yarışının qalibləri ilə Dövlət Sərhəd Xidmətində görüş keçirilib

***Qurucusu ulu öndər Heydər Əliyev olan Dövlət Sərhəd Xidməti (DSX) ötən dövrdə sürətlə inkişaf edərək ölkəmizin sərhədlərini ən yüksək standartlar səviyyəsində mühafizə etməyə qadir hərbi quruma çevrilib. Bu inkişafın təməlində ulu öndər Heydər Əliyevin böyük uzaqgörənliklə müəyyənləşdirdiyi milli sərhəd strategiyasının Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə müvəffəqiyyətlə həyata keçirilməsi, Azərbaycan Sərhəd Mühafizəsinə göstərilən ali dövlət qayğısı dayanır.***



Prezident İlham Əliyevin 2007-ci il 12 iyul tarixli Sərəncamı ilə Dövlət Sərhəd Xidməti Akademiyasının yaradılması və 2010-cu il avqustun 10-da onun yeni binalar kompleksinin xidməti istifadəyə verilməsi, 2011-ci ildə Heydər Əliyev Fondunun dəstəyi ilə Dövlət Sərhəd Xidmətinin Xüsusi Məktəbinin yaradılması ilə DSX-də kadrların hazırlanması üzrə mükəmməl tədris sistemi formalaşdırılıb. DSX-nin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, sərhədçi kursantların, o cümlədən Dövlət Sərhəd Xidmətinin bütün hərbi qulluqçularının hərbi vətənpərvərlik tərbiyəsinin əsasını Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin irsinin və Ulu Öndərin banisi olduğu milli dövlətçiliyimizin təşəkkül tarixinin öyrənilməsi təşkil edir. Dövlət Sərhəd Xidmətinin "Heydər Əliyev elmi araşdırmalar mərkəzi"nin dəstəyi və təşkilatçılığı sayəsində bütün hərbi hissələrdə, xüsusilə də DSX Akademiyasında və Xüsusi Məktəbində Ulu Öndərin həyat salnaməsinin, təhlükəsizlik orqanlarında xidmət illərinin və siyasi fəaliyyətinin, sərhəd təhlükəsizliyi konsepsiyasının banisi kimi Azərbaycan Sərhəd Mühafizəsi tarixindəki müstəsna xidmətlərinin tədqiq edilməsinə, gənc nəslin Heydər Əliyev ideyalarına sadiqlik ruhunda tərbiyəsinə ciddi önəm verilir.

Oktyabrın 18-də 47 ali təhsil müəssisəsinin bakalavr və magistr səviyyələri üzrə əyani təhsil alan tələbələrindən ibarət komandalarının iştirak etdiyi, Heydər Əliyev Mərkəzinin və Azərbaycan Respublikasının Təhsil Nazirliyinin dəstəyi ilə keçirilən "Heydər Əliyev və Azərbaycan tarixi" V ümumrespublika bilik yarışında Dövlət Sərhəd Xidmətinin Akademiyasının komandası birinciliyi qoruyaraq, 2017-ci ildə olduğu kimi qalib adını qazanıb.

Ulu öndər Heydər Əliyevin irsinin öyrənilməsi istiqamətində həyata keçirilən tədbirlərin səmərəliyinin mühüm göstəricisi olan bu qələbə xəbəri Dövlət Sərhəd Xidmətinin şəxsi heyəti tərəfindən böyük sevinc və qürur hissi ilə qarşılanıb. Oktyabrın 19-da Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik Elçin Quliyev bilik yarışının qaliblərini və onları hazırlamış müəllim heyətini qəbul edib.

General-polkovnik Elçin Quliyev kursantları və onların müəllimlərini qələbə münasibətilə səmimi təbrik edərək Azərbaycan Sərhəd Mühafizəsinin təşəkkülündə və formalaşmasında dahi öndər Heydər Əliyevin müstəsna rolunu xüsusi olaraq vurğulayıb. DSX rəisi Azərbaycan Respublikasına rəhbərlik etməsinin 15 illiyini təntənəli surətdə qeyd etdiyimiz Prezident İlham Əliyevin ölkəmizi regionun lider dövlətinə və beynəlxalq münasibətlər sisteminin etibarlı tərəfdaşına çevirməsini, Azərbaycan xalqının gələcəyinə ünvanlanmış milli dövlətçilik strategiyasını uğurla gerçəkləşdirməsini, dövlət quruculuğunun və ictimai həyatın bütün sahələrində olduğu kimi dövlət sərhədlərinin etibarlı mühafizəsinin təşkilində də əsaslı islahatların aparılmasını və önəmli nəticələrin əldə edilməsini bildirib.

General-polkovnik Elçin Quliyev 2014-cü ildən keçirilən və Heydər Əliyevin zəngin dövlətçilik irsinin öyrənilməsinə həsr olunmuş "Heydər Əliyev və Azərbaycan tarixi" ümumrespublika bilik yarışlarında Dövlət Sərhəd Xidməti Akademiyasının komandasının hər zaman ilk beşlikdə yer tutmasını, 2017-ci və 2018-ci illərdə isə ardıcıl olaraq qələbə qazanmasını Azərbaycan sərhədçilərinin Heydər Əliyev ideyalarına və milli dövlətçiliyə sadiqliyinin mühüm göstəricisi, gənc sərhədçi nəslinin hərbi vətənpərvərlik tərbiyəsi sahəsində qazanılmış ciddi uğur kimi qiymətləndirib. "Heydər Əliyev və Azərbaycan tarixi" V ümumrespublika bilik yarışında yüksək bilik və əzmkarlıq nümayiş etdirərək ən yüksək nəticə göstərmiş kursantlar və müəllimlər dövlət təltifləri və fəxri fərmanlar ilə mükafatlandırılıblar.

# Azərbaycan mətbuatının nümayəndələri Tbilisidə Cümhuriyyətin elan edildiyi tarixi binada olublar

***Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun təşkilatçılığı ilə Gürcüstanda səfərdə olan bir qrup KİV nümayəndəsi Tbilisidə 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasını nəzərdə tutan İstiqlal Bəyannaməsinin elan edildiyi bina ilə tanış olublar.***



Azərbaycanlı jurnalistlərə məlumat verilib ki, Gürcüstan dövlətinin və Azərbaycan Xalq Cümhuriyyətinin İstiqlal bəyannamələrinin elan edildiyi tarixi bina çar Rusiyası dövründə Qafqaz canişinliyinə məxsus olub. Bina hazırda "Gənclər evi" kimi fəaliyyət göstərir.

Bildirilib ki, 1918-ci il fevralın 23-də bu binada Gürcüstan, Azərbaycan və Ermənistan təmsilçilərindən ibarət Zaqafqaziya Seymi çağırılıb. Seymdə müsəlmanlar say etibarilə üstünlük təşkil edib. Həmin dövrdə müsəlman fraksiyasının 50 üzvü olub. Gürcüstan sosial demokratlarının 32, ermənilərin isə 27 üzvü Seymdə təmsil edilib.

Gürcüstan 1918-ci il mayın 26-da Zaqafqaziya Seymindən ayrıldığını bəyan edib və bununla da Seym buraxılıb. Mayın 27-də isə Seymin azərbaycanlı nümayəndələri müvəqqəti Milli Şuranın yaradıldığını elan ediblər. Şuraya sədrlik Məhəmməd Əmin Rəsulzadəyə həvalə olunub. Bir gün sonra isə Milli Şuranın 26 üzvünün iştirak etdiyi ilk iclasında İstiqlal Bəyannaməsi qəbul olunub. Beləliklə, 1918-ci il mayın 28-də Tbilisinin mərkəzindəki bu binada Azərbaycan Xalq Cümhuriyyətinin yaradıldığı rəsmən elan edilib. Yeni yaranmış hökumət və Milli Şura iyunun 16-dək, yəni Gəncəyə köçürülənədək bu binada fəaliyyət göstərib. Azərbaycan nümayəndə heyətinin üzvləri bina ilə yaxından tanış olublar. Jurnalistlər bir vaxtlar gərgin müzakirələrin aparıldığı Güzgülü salon, sənədlərin imzalandığı Ağ salon və qərarların oxunduğu, iclasların keçirildiyi Qırmızı zalları gəziblər. Sonda binanın bağçasında xatirə şəkli çəkdiriblər.

# Azərbaycan və Gürcüstan parlamentləri arasında əməkdaşlığın inkişaf perspektivləri müzakirə olunub





***Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun təşkilatçılığı ilə Tbilisidə səfərdə olan KİV nümayəndələrinin və deputatların bir qrupu oktyabrın 18-də Gürcüstan parlamentində olub.***

Görüşdə Azərbaycan-Gürcüstan parlamentlər arası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Mətbuat Şurasının sədri Əflatun Amaşov, Fondun icraçı direktoru Vüqar Səfərli Azərbaycan media mənsublarının Tbilisiyə səfərinin məqsədi barədə məlumat veriblər.

Ə.Amaşov deyib ki, ölkələrimiz arasındakı əlaqələr strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Münasibətlərimizin belə yüksək səviyyəyə çatmasında parlamentlərin rolunu xüsusi vurğulayan Mətbuat Şurasının sədri beynəlxalq tədbirlərdə milli maraqlarımıza cavab verən taleyüklü məsələlərdə deputatlarımızın eyni mövqedən çıxış etmələrini yüksək qiymətləndirib.

V.Səfərli ölkələr arasında əməkdaşlıq əlaqələrinin daha da möhkəmlənməsində kütləvi informasiya vasitələrinin rolunu xüsusi qeyd edib. Hər iki ölkənin media nümayəndələri arasında birbaşa əlaqələrin yaradılması üçün qarşılıqlı səfərlərin və tədbirlərin təşkilinin vacibliyini bildirib. Gürcüstanın GUAM Parlament Assambleyasındakı nümayəndə heyətinin rəhbəri, Gürcüstan-Azərbaycan parlamentlərarası əlaqələr üzrə dostluq qrupunun üzvü Giorgi Mosidze bildirib ki, ölkəsi Azərbaycan ilə əlaqələrin bütün sahələrdə inkişafında maraqlıdır. O, deputatların və KİV nümayəndələrinin qarşılıqlı səfərlərinin təşkili və intensivləşdirilməsi üçün səylərini artıracağını bildirib. Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Görüşdə Azərbaycanın Gürcüstandakı səfiri Dursun Həsənov iştirak edib.

# Latviyalılar Azərbaycan narını xüsusi dəyərləndirirlər



"Press" xəbər saytında Riqa Mərkəzi Bazarından geniş reportaj dərc olunub. Təbii çayların, keyfiyyətli meyvə və tərəvəzlərin satışı və əhali tərəfindən istehlakına həsr olunmuş reportajda Azərbaycan narına xüsusi diqqət ayrılıb. "Azərbaycan narı qiyamətdir!" yarımbaşlığında qeyd olunur ki, yerli bazarda satılan narlar arasında ən dadlısı və keyfiyyətlisi məhz Azərbaycan narıdır. Satış nöqtələrində dequstasiya üçün də nar təqdim olunur və alıcılar bu meyvəni kiloqramla alır. Hətta qabaqcadan böyük həcmdə sifarişlər də qəbul olunur. Riqa Mərkəzi Bazarı şəhərin turistləri üçün maraqlı olan tarixi yerlərindən biridir. Burada hər gün çoxsaylı yerli və xarici vətəndaşlar alış-veriş edirlər. Turistlər arasında payız aylarında isveçlilər, almanlar və italyanlar üstünlük təşkil edir.



# Vyetnamda Heydər Əliyev Fondunun dəstəyi ilə inşa edilmiş ibtidai məktəbin açılışı olub



***Vyetnamın Ha Giang əyalətinin Giap Trung qəsəbəsində Heydər Əliyev Fondunun dəstəyi ilə inşa olunmuş ibtidai məktəbin açılış mərasimi keçirilib. AZƏRTAC xəbər verir ki, mərasimdə Azərbaycan Respublikasının Vyetnam Sosialist Respublikasındakı səfiri Anar İmanov və Ha Giang əyaləti Xalq Komitəsi Sədrinin müavini Tran Duc Quy, həmçinin əyalət rəsmiləri, məktəbin müəllim-şagird heyəti və qəsəbə icmasının digər nümayəndələri iştirak ediblər.***

Səfir A.İmanov çıxışında Azərbaycan ilə Vyetnam arasında tarixən yaxın əlaqələrin mövcudluğunu xüsusi vurğulayaraq sözügedən məktəbin inşasının Azərbaycanın Vyetnam ilə münasibətlərə verdiyi əhəmiyyətin təzahürü olduğunu bildirib. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu tərəfindən həyata keçirilmiş bu layihənin qəsəbədə yaşayan uşaqların təhsil almaq imkanlarını əhəmiyyətli dərəcədə artıracağını bildirən səfir Fond tərəfindən indiyə qədər Azərbaycanda və Azərbaycana yaxın olan bir sıra dost ölkələrdə çoxlu sayda sosialyönümlü layihənin həyata keçirildiyini vurğulayıb. Səfir Azərbaycan ilə Vyetnam arasında ənənəvi dostluq əlaqələrinin bundan sonra da möhkəmlənib inkişaf edəcəyinə əminliyini ifadə edərək Heydər Əliyev Fondu haqqında dolğun məlumatı tədbir iştirakçılarının diqqətinə çatdırıb.

Tran Duc Quy çıxışında Vyetnam üçün son dərəcə çətin müharibə vaxtında və müharibədən sonrakı zamanda ölkəsini güclü dəstəkləyənlər arasında Azərbaycan xalqının da olduğunu məmnunluqla bildirib. O, Ha Giang əyalətinin ucqar dağlıq ərazisindəki qəsəbədə ibtidai məktəbin inşa edilməsinə görə Heydər Əliyev Fondunun timsalında bütün Azərbaycan xalqına dərin təşəkkürünü ifadə edib. Tran Duc Quy deyib ki, tədris şəraitinin yaxşılaşdırılması ilə məktəbin şagirdləri yeni imkanlardan daha səmərəli şəkildə istifadə edərək Ha Giang əyalətinin layiqli nümayəndələri olacaqlar. Eyni zamanda, o, şagirdlərin yaradılmış bu şəraitdən tam şəkildə bəhrələnərək Azərbaycanın ali təhsil ocaqlarında təhsillərinin davam etdirilməsi imkanının əldə olunması üçün xarici dilləri də öyrənəcəklərini bildirib. Tədbir şagirdlərin hazırladığı konsert proqramı ilə davam etdirilib.

# Hikmət Hacıyev: “Star” layihəsi Azərbaycan-Türkiyə qardaşlıq əlaqələrinin strateji xarakter daşımasının nümunəsidir



***Azərbaycan Respublikası Prezidenti Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdir müavini Hikmət Hacıyev “TRT World” kanalına müsahibə verib. AZƏRTAC xəbər verir ki, müsahibədə Hikmət Hacıyev bu gün Azərbaycan və Türkiyə prezidentlərinin iştirakı ilə açılışı olacaq “Star” neft emalı zavodu barədə danışıb.***

O, bu layihənin əsasının Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən qoyulduğunu qeyd edib. Layihənin Azərbaycanın Türkiyə iqtisadiyyatına böyük etibarının, iki ölkə arasında qardaşlıq əlaqələrinin strateji xarakter daşımasının nümunəsi olduğunu deyən Hikmət Hacıyev Azərbaycanın Türkiyəyə 20 milyard ABŞ dolları həcmində sərmayə yatıracağını diqqətə çatdırıb.

Azərbaycanın və Türkiyənin enerji əməkdaşlığının Bakı-Tbilisi-Ceyhan layihəsi ilə başladığını qeyd edən Hikmət Hacıyev Azərbaycanda neft-kimya sənayesinin inkişafı və Türkiyədə həyata keçirilən bu layihələrlə ölkəmizin karbohidrogen ixracında yalnız xam məhsul deyil, əlavə dəyər qatılan hazır məhsullarla Aralıq dənizi hövzəsinə çıxdığını vurğulayıb. O, Azərbaycanın Türkiyə və digər tərəfdaşlarla birgə icra etdiyi TANAP, TAP qaz layihəsinin Türkiyənin və Avropa ölkələrinin enerji təhlükəsizliyinə əsaslı dərəcədə töhfə verəcəyini diqqətə çatdırıb. Prezident Administrasiyasının rəsmisi Azərbaycanın bu kimi iqtisadi layihələrlə regional əməkdaşlığın yeni nümunələrini yaratdığını, regional sülhə, çiçəklənməyə və sabitliyə töhfə verdiyini diqqətə çatdırıb. O, Azərbaycanın etibarlı və xoşniyyətli tərəfdaş olduğunu və bu qəbildən olan əməkdaşlığı dəstəklədiyini qeyd edib.

# “Jurnalistlərin dostluq əlaqələri Azərbaycan ilə Gürcüstan arasında münasibətlərin inkişafına töhfə verəcək”

“Məqsədimiz Azərbaycanın və Gürcüstanın Kütləvi İnformasiya Vasitələri arasındakı münasibətləri daha da genişləndirmək, bu yolla dövlətlərimizin əlaqələrinə töhfə verməkdir.”



AZƏRTAC xəbər verir ki, bu sözləri jurnalistlərə müsahibəsində Tbilisidə səfərdə olan Azərbaycan Respublikasının Prezidenti Yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun icraçı direktoru Vüqar Səfərli söyləyib.

O deyib ki, fondun təşkilatçılığı ilə Azərbaycanın bir qrup KİV nümayəndəsi oktyabrın 18-də Gürcüstana səfərə gəlib. “Jurnalistlərimizin Gürcüstana səfəri Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illik yubileyi ilə əlaqədar Fondun hazırladığı tədbirlər planı çərçivəsində baş tutub. Səfərin məqsədi jurnalistləri Cümhuriyyətin yaradıcılarının fəaliyyəti, zəngin ideya irsi ilə yaxından tanış etməkdir. Bizim başqa məqsədlərimiz də var. Bu gün Azərbaycan və Gürcüstan KİV-ləri arasındakı əlaqələr çox zəifdir. Biz bu əlaqələri inkişaf etdirmək niyyətindəyik. Bu məqsədlə də Tbilisidə, eləcə də Gürcüstanın regionlarında bir sıra görüşlər keçirəcək, qarşıya qoyduğumuz məqsədlə bağlı müzakirələr aparacağıq”, - deyə o bildirib.

V.Səfərli qeyd edib ki, artıq Gürcüstan parlamentində bu mövzuda keçirdikləri görüşdə müzakirələr olub və qarşı tərəf Azərbaycan jurnalistlərinin təşəbbüsünü alqışlayıb.

İcraçı direktorun fikrincə, KİV nümayəndələri arasında möhkəm dostluq əlaqələri iki dost və qardaş xalqların münasibətlərinin bütün sahələrdə inkişafına töhfə verəcəkdir.

# AŞPA-da ölkəmizə qarşı növbəti qərəz cəhdi

## *Rasmus Vesterqaard Madzeh kimi avrodeputatlar erməni lobbisinin pullarından bəhrələnirlər*

***Bəlli olduğu kimi, oktyabrın 12-də Avropa Şurası Parlament Assambleyasının payız sessiyası başa çatıb. Diqqətçəkən məqamlardan biri də budur ki, adıçəkilən Avropa qurumunda bir qrup deputat növbəti dəfə Azərbaycan əleyhinə yönəlmiş qətnamə hazırlayaraq, müəyyən dairələrin sifarişlərini həyata keçirməyə çalışıblar. Daha dəqiq desək, ermənipərəstliyi ilə ad qazanmış Rasmus Vesterqaard Madzehin rəhbərliyi ilə AŞPA-nın 25 üzvü ölkəmiz əleyhinə qətnamə hazırlayıblar. Qətnamədə guya Azərbaycanda insan hüquqlarının pozulması və korrupsiya halları barədə gerçəkliyi əks etdirməyən iddialar var.***




### Rasmus Vesterqaard Madzehin maddi tərəfdən erməni lobbisindən bəhrələnməsi iddiası ortaya çıxır

Bu məsələnin tam analizinə keçməmiş qeyd etmək lazımdır ki, Rasmus Vesterqaard Madzeh dəfələrlə Azərbaycan əleyhinə fikirləri ilə yadda qalıb. Bu kimi hallarda onun maddi tərəfdən erməni lobbisindən bəhrələnməsi iddiası ortaya çıxır. Yəni onun bu məsələdə maddi marağı var və söz yox ki, erməni lobbisi bunun üçün onu cahcəlallı həyatla təmin edir. Əlbəttə ki, birbaşa deyil, müxtəlif “qrant layihələri” əsasında...

Məsələnin digər tərəfi də budur ki, bu gün Azərbaycan istər insan hüquqlarının qorunmasında, istərsə də korrupsiya ilə mübarizədə, hətta bir sıra Avropa dövlətlərini də geridə qoyur.

### Ölkəmizdə insan hüquqları və azadlıqları ilə bağlı heç bir problem mövcud deyil, kiçik nöqsanlar isə dərhal aradan qaldırılır

Ümumiyyətlə, Azərbaycanda cəzaların humanistləşdirilməsi ilə bağlı çox mühüm addımlar atılıb və atılmaqda davam edir. Demək olar ki, hər il verilən əfv sərəncamları sayəsində çox sayda məhbuslar azadlıqlarına qovuşur. Həmçinin, ölkəmizdə insan hüquqları və azadlıqları ilə bağlı heç bir problem mövcud deyil, kiçik nöqsanlar isə dərhal aradan qaldırılır. Bunu isə, bir çox nüfuzlu siyasi dairələr, o cümlədən, avropalı deputatların çoxu yaxşı bilirlər. Sadəcə, Madzeh və onun kimi şəxsi mənfəətlərini güdən avrodeputatlar unudurlar ki, onlar bu cür davranışları ilə həm də təmsil olunduqları qurumun - AŞPA-nın nüfuzuna xələl vururlar.

Başqa tərəfdən, ola bilər ki, məmur-vətəndaş arasında müəyyən narazılıqlar yarana bilər və belə amillər yalnız Azərbaycanda deyil, elə Avropanın özündə də vardır. Belə faktlar kifayət qədərdir və bu gün AŞPA-nın anti-Azərbaycan xarakterli dairələrində siyasi korrupsiyaya bulaşan Madzeh kimi deputatlar, yaxşı olardı ki, bu cür reallıqlardan çıxış etsinlər. Təəssüf ki, şəxsi mənfəət maraqları erməni lobbisi qarşısında nökərçilik edən Madzeh kimi deputatları həm də siyasi korluğa məruz qoyub. Necə deyərlər, “qrantlar” onların gözlərini tutub...

### Azərbaycan dövləti daim görülən işlərlə bağlı xalqa hesabatlarını təqdim etməkdədir

Görünür, bu səbəbdən, “ASAN Xidmət” və s. bu kimi ilk dəfə ölkəmizdə yaradılan xidmət qurumlarını görməzlikdən gəlirlər. Halbuki məhz bu xidmətin yaradılması, əhali üçün fəaliyyət göstərməsi hazırda Avropa ölkələrinin çoxunda yoxdur, ya da yeni fəaliyyət göstərməyə başlayıblar.

Ölkəmizdə gömrük və vergi orqanlarında, məhkəmə sistemlərində də çox böyük islahatlar həyata keçirilir, nöqsanlara yol verən hakimlər, məmurlar və s. sahələrin əməkdaşları qanun qarşısında cavab verirlər və bütün bunlar korrupsiyaya qarşı mübarizənin siyasi iradə baxımından göstəricisidir. Ancaq bu kimi qərəzli məsələlərdə yalnız erməni lobbisi canfəşanlıq göstərmir, onlardan maddi vəsaitlər toplamağa çalışan “milli xainlər” də var ki, Azərbaycanın dövlətçilik maraqları və inkişaf reallığından qıcıqlanırlar.

### Onların da qarşısına “sür-sümük” atacaqlar...

AŞPA-dakı 25 ermənipərəst və mənfəətpərəst deputatın kirli maraqlarından çıxış edib, növbəti dəfə Azərbaycana qarşı qərəzli mövqe nümayiş etdirdilər. Nədir ki, onların da qarşısına “sür-sümük” atacaqlar...

Bu arada daha bir xatırlatmanı da etmək olar ki, Rasmus Vesterqaard Madzehin rəhbərliyi ilə ölkəmizə qarşı qərəz nümayiş etdirən AŞPA-nın 25 üzvü arasında Azərbaycanın işğal olunmuş ərazilərinə qanunsuz səfər edənlər də var. Bu gerçəkliyin özü də, bu cür düşünməyə zəmin yaradır ki, birbaşa erməni təsiri altında olan həmin şəxslər insanlığa aid olan bütün üstün cəhətlərdən məhrumdurlar. Onların gözlərini tutan “qrantlar” isə, əlbəttə ki, ədalət qarşısında havaya uçaraq, yox olacaq. Çünki biz dəfələrlə şahidi olmuşuq ki, bənzər addımlar atanların hər biri, nəticədə, iflasa məhkum olublar.

**Rövşən NURƏDDİNOĞLU**

# “Star” Azərbaycan və Türkiyəyə nə vəd edir?

***“Star” Neft Emalı Zavodu Azərbaycanın kənarda, eləcə də Türkiyədə ən böyük sərmayə qoyuluşlarından, investisiya layihələrindən biri kimi qiymətləndirilir “. Bu fikirləri SİA-ya açıqlamasında iqtisadçı ekspert Vüqar Bayramov deyib.***



O bildirib ki, “Star” zavoduna qoyulan sərmayə bir tərəfdən SOCAR-ın, eləcə də Azərbaycanın xaricdən əldə etdiyi gəlirlərə təsir göstərər bilər. Ekspert söyləyib ki, lirənin məzənnəsinin aşağı düşməsi fonunda da “Star”ın fəaliyyətini qiymətləndirən deyə bilərik ki, zavod daha çox xarici valyuta ilə həm idxal, həm xarici valyutaya konvertasiya olunmuş satış həyata keçirmək niyyətindir: “Onun fəaliyyətə başlaması bir tərəfdən Azərbaycan Dövlət Neft Şirkətinin gəlirlərini artıra bilər, digər tərəfdən isə idxalın xarici valyuta, satışın xarici valyutaya uyğun olaraq milli valyuta ilə həyata keçirildiyini nəzərə alsaq, o zaman əldə olunan gəlirin valyuta bazarı vasitəsilə SOCAR tərəfindən istifadə edilməsi və daha çox gəlir edilməsi çox vacibdir”.

V. Bayramov qeyd edib ki, “Star”ın istifadəyə verilməsi ilə yanaşı, növbəti mərhələdə əldə edilən gəlirlərdə valyuta risklərini sığortalamağın mümkünlüyü vacib məsələdir: “Eyni zamanda praktiki olaraq, əldə edilən sərmayənin digər istiqamətlərə yönəldilməsi yolu ilə daha çox gəlirin əldə edilməsinə nail oluna bilinsin”.

Layihənin Azərbaycan-Türkiyə arasında əməkdaşlıq baxımından mühüm əhəmiyyət kəsb etdiyini deyən ekspert vurğulayıb ki, ölkəmiz Türkiyəyə ən çox investisiya edən 5 ölkədən biridir: “Əgər əvvəllər Türkiyə Azərbaycan üçün aparıcı investorlardan biri idisə, bu gün Azərbaycan Türkiyə üçün aparıcı investorlardan hesab olunur. Bu baxımdan layihə həm Türkiyə iqtisadiyyatına investisiya baxımından həm də iki ölkə arasında olan strateji əməkdaşlığın gücləndirilməsinə xidmət edir. Nəticə etibarı ilə tərəflərin strateji olaraq daha faydalı şəkildə əməkdaşlığın genişləndirilməsi üçün iqtisadi zəmin formalaşıb”.

# İrəvanda Frankofoniya sammiti: rəsmi Parisin tarixi səhvi və fransızların “həmyerliləri”

***Böyük dövlətlər müstəqil xarici siyasət yeridərlər. Bunu müstəqil olan hər bir ölkə tam dərk edir. Ancaq müstəqil siyasət yeritmək qətiyyən ədalətsiz, haqsız və qeyri-obyektiv olmaq anlamına gəlməz. Üstəlik, bu “müstəqil siyasət” təcavüzkara, haqsıza arxa olmağı nəzərdə tutursa, çox zərərlidir, bütün dünya üçün təhdiddir. Frankofoniya təşkilatının 17-ci sammitinin İrəvanda keçirilməsi özlüyündə qeyri-adi deyil. Ermənistan həmişə qeyri-sabit, bir geosiyasi cəbhədən digərinə qaçmaqla xarakterizə olunan mövqe tutub. Olmasın “rusofoniya”, olsun “frankofoniya” - İrəvan üçün elə də fərq etməz. Təki danışanlar ermənipərəst olsunlar. Bu baxımdan Fransa Prezidenti 17-ci sammitdə çox fərqləndi. Onun ifadə etdiyi fikirlərin dünya siyasətinə hansı təsiri göstərəcəyi bir qədər sonra aydın olacaq. Ancaq söylənən fikirlərdə Cənubi Qafqaza aid vacib məqamlar olduğundan onların üzərində indidən geniş dayanmağa ehtiyac görürük.***




### Azərbaycan-Fransa münasibətləri: Bakının cəsarətli və konstruktiv addımları

Azərbaycan müstəqillik əldə edəndən sonra ölkəmiz Fransa ilə ən yüksək səviyyədə münasibətlər qurmaq istiqamətində davamlı addımlar atıb. Ulu öndər Heydər Əliyevin xalqın tələbi ilə yenidən siyasi hakimiyyətə qayıdışından sonra isə bu proses sistemli, ardıcıl və dərindən düşünülmüş məzmun kəsb edib. Heydər Əliyev Prezident kimi xaricə ilk rəsmi səfərini Parisə edib. Azərbaycan Prezidenti seçildikdən sonra (3 oktyabr 1993-cü il) Ulu öndər Fransa Prezidenti Fransua Mitteranın dəvətini qəbul edərək bu ölkəyə gedib. Orada Ümummilli liderin apardığı danışıqlar müsbət nəticə verib. Fransa Azərbaycanla əlaqələri inkişaf etdirməyin zəruriliyini dərk edib.

Prezident İlham Əliyev Ulu öndərin siyasi kursunu inkişaf etdirərək, Fransa ilə əlaqələrə ayrıca önəm verib. Bunu dövlət başçısının Fransaya olan səfərləri və həyata keçirilən birgə proqramlar təsdiq edir. Belə ki, Azərbaycan Prezidenti İlham Əliyev də Prezident seçildikdən sonra ilk xarici səfərini Fransaya edib (yanvar, 2004).

2016-cı ilə olan məlumata görə, Azərbaycanda 40-dan çox Fransa şirkəti fəaliyyət göstərir. Təbii ki, bu, son hədd deyil. Çünki dövlət başçısı İlham Əliyev Fransa ilə əlaqələrin daha da genişlənməsi istiqamətində addımlarını davam etdirir. Təkcə bu ilin yayında Prezident İlham Əliyevin Fransaya səfəri zamanı 11 fransız şirkəti ilə müxtəlif sahələri əhatə edən və 2 milyard dollar həcmində sərmayəni nəzərdə tutan müqavilələr imzalanıb.

Bununla bağlı Azərbaycan Prezidenti deyib: “Azərbaycan ilə Fransa şirkətləri arasında 2 milyard dollardan çox dəyərində müqavilələr imzalanıb. Bu müqavilələr reallaşdırıldığı təqdirdə onların həcmi daha da artacaq. Həmçinin enerji təhlükəsizliyi məsələsi müzakirə olunub, “Cənub Qaz Dəhlizi” layihəsinin uğurla icra edildiyi vurğulanıb. Neft-qaz sektoru, infrastruktur, nəqliyyat, kosmik sənaye, hava nəqliyyatı, metro tikintisi, hərbi-texniki sahələrdə əməkdaşlıq məsələləri də müzakirə olunub”.

Bəs bütün bunların qarşılığında rəsmi Parisin Azərbaycan siyasəti hansı məzmunda olub? Çox təəssüf ki, məsələnin bu tərəfi ilə bağlı bir sıra mənfi faktları xatırlamalı oluruq. Hər şeydən öncə, deməliyik ki, Azərbaycan müstəqil dövlət kimi heç bir ölkənin daxili işlərinə qarışmır və münasibətlərini hansısa xüsusi məqsədə görə qurmur. O cümlədən rəsmi Bakı Fransanın hansı dövlətlə necə əlaqələr yaratmalı olmasına qətiyyən qarışmaz. Lakin Azərbaycanın dövlət maraqlarına və suverenliyinə zərər verə biləcək davranışları da diqqətdən kənarda saxlaya bilməz. Fransa ilə münasibətlərdə məsələnin bu aspekti həm də ona görə daha həssasdır ki, bu ölkə ATƏT-in Minsk qrupunun üç həmsədrindən biridir. Fransa üzərinə belə bir öhdəlik götürüb ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli, beynəlxalq hüquq çərçivəsində və sülh yolu ilə həllində vasitəçilik edəcək. Əgər bu şərtlərdən kənara çıxılırsa, Azərbaycanın haqlı irad bildirməsinə kimsə mane ola bilməz, çünki söhbət Azərbaycanın müstəqilliyindən, ərazi bütövlüyündən və suveren dövlət kimi gələcəyindən gedir. Bu anlamda Fransa tərəfindən hansı addımlar atılıb?

İlk növbədə qeyd edək ki, Prezident Emmanuel Makron bu ilin yanvarında Fransada yerləşən Erməni Təşkilatlarının Koordinasiya Şurası (CCAF) tərəfindən qondarma “erməni soyqırımı”nın anım mərasiminə dəvət edilərkən, CCAF-ın həmsədrləri Ara Toranyan və Murad Papazyan onu Türkiyəni tənqid etməyə və Azərbaycanın işğal altında olan Dağlıq Qarabağ bölgəsinə səfər etməyə səsləyib.

### Fransız deputatlar və merlər: işğal ərazilərinə qanunsuz səfərlər

Ancaq bununla yanaşı, Fransa parlamentinin bir sıra üzvləri və şəhər merləri Dağlıq Qarabağa səfərlər edirlər. Məsələn, Fransanın “Xalq hərəkatı uğrunda ittifaq” parlament fraksiyasının deputatı Gi Tesye Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş ərazilərinə səfər edib və orada separatçı rejimin nümayəndələri ilə görüşlər keçirib. Bundan başqa, “Fransa-Dağlıq Qarabağ” dostluq qrupu yaradılıb. Fransa rəsmiləri Ermənistanın son 25 ildə işğalda saxladığı Dağlıq Qarabağ bölgəsinə səfərlər həyata keçiriblər. Digər heç bir dövlətin rəsmi şəxsləri bu addımı atmayıblar.

Fransanın Alforvil və Valans şəhərlərinin merləri də Dağlıq Qarabağa səfərlər ediblər. Bu, birbaşa Ermənistanın və havadarlarının Azərbaycan ərazilərində yaratdığı qondarma separatçı rejimin təşviqinə xidmət edir. Bu bağlılıqda Fransada türklərə qarşı terror aktları törədən canilərin milli qəhrəman obrazlarının yaradılması, onların adına küçə və meydanların verilməsi olduqca təəssüfedicidir. Fransa ədaləti, demokratiyanı, insan haqlarını və obyektivliyi tam itirmiş kimi görünür.

Bunlardan başqa, Fransanın ayrı-ayrı şəhərləri Dağlıq Qarabağla müqavilələr imzalayıblar. Fransız şirkətlərinin işğal edilmiş Azərbaycan ərazilərində fəaliyyəti barədə informasiyalar mövcuddur. Bu kimi proseslərin fonunda iki məqam maraq doğurur. Birincisi, Fransanın canfəşanlıq etməsinə rəğmən, Ermənistanın faktiki olaraq rəsmi Parisi gözardına almasıdır. İkincisi, Frankofoniyanın məhz Ermənistanda keçirilməsidir.

Birinci məqamla bağlı Fransanın Ermənistandakı keçmiş səfiri Anri Renonun etirafı diqqət çəkir. O deyir ki, Ermənistanda fransız dilini öyrənənlərin sayı hətta SSRİ dövründə olduğundan da aşağıya düşüb. Ermənistanla Fransa arasında əmtəə dövriyyəsi 100 milyon dollar həddini ötməyib və illik mal dövriyyəsində də heç bir artım yoxdur. Əksinə, azalma müşahidə edilir. “Orange” mobil operatoru Ermənistanın mobil operatorları bazarına daxil olsa da, sonra-

dan səhmlərini Rusiyaya məxsus şirkətə satmağa məcbur oldu. "Karfur" dükanlar şəbəkəsi Ermənistanda reallaşa bilmədi. Bu şirkəti də Rusiya ilə sıx əməkdaşlığı olan erməni biznesmenlərindən biri ələ keçirdi. İndi İrəvanda 1-2 fransız mağazası var və Nikol Paşinyan Fransaya səfəri zamanı onları qoruyacağına söz verib. Bu, əməkdaşlıq və dostluq haqqında tipik erməni mövqeyidir.

## Makronun "ermənifoniyası": siyasət və "həmyerli" axtarışları

Lakin Prezident Emmanuel Makron Frankofoniya üçün İrəvana gəldi. Orada, sözün düzü, bir qədər qəribə fikirlər səsləndirib. O deyib: "Mən Frankofoniyanın 17-ci sammitində iştirak etmək üçün Ermənistanda olmağıma görə şadam. Ermənistan bizim üçün çox əzizdir. Ermənilər Fransa tarixini yaradıblar, bizim, demək olar ki, yarım həmyerlilərimizdir. Ermənilər bizim tariximizin bir hissəsi və fəxr predmetidir".

Maraqlıdır, Fransa tarixini ermənilər yaradıblarsa və fransızlarla ermənilər həmyerlidirlərsə, niyə Ermənistanı Qafqazda yaradıblar? Məlumdur ki, fransızlar qafqazlı deyillər və ermənilərlə həmyerlidirlərsə, onda ermənilər də qafqazlı deyillər. O halda belə çıxır ki, müəyyən dairələr məqsədli şəkildə ermənilərə Cənubi Qafqazda dövlət yaradıblar ki, bölgə xalqlarının başına bəla olsun. Biz cənab E.Makrona demək istərdik: cənab Fransa Prezidenti, aparın həmyerlilərinizi bu başıbəlalı regiondan, bununla Siz qafqazlılara böyük yaxşılıq etmiş olarsınız!

E.Makron daha dərinə gedərək bəyan edib: "Fransızlar ermənilərə öz ürəklərinin qapılarını kübarca açıblar. Bu iki ölkəni sizi çox sevən Fransa xalqı birləşdirir. Bizim xoşbəxtliyimiz də, kədərimiz də birdir. Ermənilər fransızların ürəklərindədir".

Daha sonra Fransa Prezidenti Parisin "erməni soyqırımı"nı heç zaman unutmayacağını da deyib. Aydın görünür ki, bununla rəsmi Paris həyata keçirdiyi xarici siyasətin bir sıra mühüm istiqamətlərini açıq ifadə edib. Fransa Ermənistana tam dəstək verdiyini və bütün məsələlərdə onun yanında olduğunu nümayiş etdirib. Elə isə belə bir tərəfkeş dövlət hansı haqla ATƏT-in Minsk qrupuna həmsədrlik edir? Eyni məntiqlə ermənilər və avropalılar hansı üzlə Türkiyəni tərəfkeşlikdə ittiham edirlər? Türkiyə təcavüzə məruz qalanın yanındadır, onun etnik-milli kimliyi önəmli deyil. Ankara ədalət tələb edir, ayrı-seçkiliyə qarşıdır.

Fransa isə birbaşa bəyan edir ki, təcavüzkarın yanındadır. Hətta bu işğalçı fransızların qəlbindədir, onlar fransızlarla həmyerlidirlər. Minsk qrupunun həmsədri və BMT Təhlükəsizlik Şurasının daimi üzvü kimi Fransa bu cür ikili standartlarla hansı uğurları qazana bilər? Rəsmi Paris azərbaycanlıların dostudurmu, düşmənidirmi?

Bu suallar indi çox aktualdır. Həm də ona görə ki, Fransa Avropa İttifaqındakı rolu və mövqeyinə görə Azərbaycan üçün əhəmiyyətli tərəfdaşdır. Fransa Aİ-nin Almaniya və İtaliya ilə bərabər üç mühüm üzvündən biridir. Nəhayət, Azərbaycan digər həmsədr dövlətlərlə yanaşı, Fransadan da münaqişənin həllində qətiyyətli addımlar gözləyir. Bunlardan başqa, Fransa Avropanın iqtisadiyyatında çox mühüm yer tutur, xarici siyasətdə aparıcı mövqedədir. Onu da nəzərə alaq ki, Azərbaycanın ticarət dövriyyəsinin təxminən yarısı Avropa İttifaqı ölkələrinin payına düşür. Yuxarıda vurğuladığımız faktlar da göstərir ki, Fransa bu sahədə də önəmli partnyordur. Azərbaycana daxil olan xarici investisiyaların 6,7 faizi Fransanın payına düşür.

## Təmkinli, konstruktiv və səbirli Azərbaycan: hər şeyin bir həddi vardır

Artıq qeyd etdiyimiz kimi, rəsmi Bakı bütün bunları diqqətə alır və Fransa ilə əlaqələrin inkişafı üçün ardıcıl addımlar atır. Qarşılığında isə Frankofoniyadakı çıxış və bir sıra fransız deputatın, merlərin işğal olunmuş ərazilərə qanunsuz səfərləri... Müqayisə aydındır. Əslində isə Fransa Ermənistanla olan münasibətlərindən ədalət naminə istifadə edə bilər. Çünki əgər onlar tarixən yaxın əlaqələrə malikdirlərsə, onda Paris İrəvana anlada bilər ki, başqalarının torpaqlarını işğal etmək haqsızlıqdır, cinayətdir, ondan əl çəksin. Fransa tam olaraq başa sala bilərdi ki, Ermənistan rəhbərlərinin etdikləri beynəlxalq hüquq normalarına ziddir. Bu kimi işlərin axırı olmur.

Bundan başqa, Fransa Avropa İttifaqının üzvü kimi həm demokratiyanı müdafiə etməlidir, həm də Azərbaycanla imzalanan strateji tərəfdaşlıq sazişlərinin müddəalarına əməl etməlidir. Paris isə bunu bir neçə məqamda kobud şəkildə pozur. Birincisi, Fransa parlamentinin üzvləri Dağlıq Qarabağa səfərlər edirlər. Fransanın bəzi şəhərlərinin merləri eyni yanlış hərəkəti edirlər. Bununla Fransa rəsmi olaraq BMT, Aİ, AŞPA-da qəbul edilən və altında imzası olan sənədlərdəki tələbləri pozur. Son olaraq, Aİ ilə Azərbaycanın birgə hazırladığı və Azərbaycanın ərazi bütövlüyünü, sərhədlərinin toxunulmazlığını təsdiqləyən sənədin müddəalarına zidd hərəkət edir.

İkincisi, Fransa Prezidenti beynəlxalq tədbirdə çıxış edərək özünün ermənipərəst olduğunu açıq etiraf edib. Bu isə bir tərəfdən Azərbaycanla imzalanan sazişlərin ruhuna ziddir, digər tərəfdən Fransanın ATƏT-in Minsk qrupunun həmsədri kimi tərəfsiz ola bilməyəcəyi anlamına gəlir. Elə isə Fransa özü bəyanat verib Minsk qrupunun həmsədrliyindən çəkilməlidir. Lakin rəsmi Parisin bunların heç birini etmək fikrində olmadığı aydın görünür.

Bütün bunlarla yanaşı, bir geosiyasi məqam maraqlıdır. Ermənistan Frankofoniyanı İrəvanda keçirməklə Rusiyaya yeni "əlcək atmış" olur. Paris açıqca Ermənistanda hökmranlıq etmək niyyətini ortaya qoyur. E.Makron bunu ən azı iki istiqamətdə təsdiqlədi. Əvvəla, Fransa Prezidenti Ermənistanın ən yaxın tərəfdaşı olduğunu ifadə etdi. Bəs onda Rusiya kimdir? Axı, Ermənistan adlı dövləti Rusiya yaradıb. İndi onun ən yaxını Fransa oldu? Kremlin buna reaksiyası maraqlı olacaq.

İkincisi, E.Makron fransız dilinin Ermənistan üçün əhəmiyyətini dolayısı ilə ifadə etmiş oldu. Özü də bu, Ermənistanda rus dilinin demək olar ki, tamamilə yox edilməsi fonunda baş verir. Rusiya Ermənistanın təhsil sistemində rus dilinin inkar edilməsi ilə bağlı dəfələrlə fikrini bildirib. Ancaq real dəyişiklik yoxdur. Bunun əvəzində Ermənistan rəhbərliyi fransız dili və mədəniyyəti ilə bağlı tədbirə evsahibliyi edir. O, faktiki olaraq "rus dünyası"nı "fransız dünyası"na dəyişməyə istiqamət götürüb.

Azərbaycan isə tamamilə fərqli mövqedədir. Bakı Fransa ilə də yaxın əlaqələrini inkişaf etdirir, Rusiya ilə də bütün sahələrdə münasibətlərini çox müsbət müstəvidə inkişaf etdirməkdədir. Azərbaycanda rus dilinin inkişafı üçün heç bir maneə yoxdur. Hətta ölkənin təhsil sistemində bu dilin yeri və rolu getdikcə daha da möhkəmlənir. Rus mədəniyyəti Azərbaycanda yayılıb, yayılır və bu vəziyyətin dəyişəcəyinə dəlalət edən fakt yoxdur.

Ancaq əsas sual budur ki, Azərbaycan bu ölkələrlə səmimi və dostca münasibət qurarkən, ermənilərin isə eqoist, əsassız iddiaları ilə üz-üzə gələrkən Paris lazımi dərəcədə konstruktiv mövqe tutmur, təcavüzkara açıq və ya gizli dəstək göstərir, ona yeni-yeni silahlar verir. Görünür, Azərbaycan bu təcrübəni nəzərə alıb hansısa nəticələr çıxara bilər. Hər halda, xüsusilə Fransanın ədalətli və obyektiv mövqe tutmadığı aydındır.

Bütün bunlar beynəlxalq hüququn, demokratik dəyərlərin, insan hüquq və azadlıqlarının ayaqlar altına atılmasıdır və dövlətlərarası münasibətlərin dostluq ruhu ilə ziddiyyət təşkil edir. Azərbaycan özünün xarici siyasətini bərabərhüquqlu əməkdaşlıq, qarşılıqlı etimad, beynəlxalq hüquq normalarına hörmət, daxili işlərə qarışmamaq prinsipləri üzərində qurur. Və bütün ölkələrlə, o cümlədən Fransa ilə əməkdaşlıq və tərəfdaşlıq münasibətlərini məhz bu prinsiplər əsasında həyata keçirir.

Rəsmi Bakı kifayət qədər düşünülmüş və məntiqli siyasət yürüdür. Bu siyasət milli maraqlara uyğun olaraq beynəlxalq hüquq çərçivəsində reallaşdırılır. Ölkə rəhbərliyi daim ən düzgün mövqeni seçir. Bunu təcrübə dəfələrlə təsdiq edib. Azərbaycan heç də böyük dövlətlərlə münasibətləri pozmaq kimi kurs yeritmir, daim əməkdaşlıq və qarşılıqlı fayda üçün çalışır. Bununla yanaşı, əks tərəfin də hərdən vicdanını qarşısına qoyub düşünməsi lazım deyilmi?

Bir başqa məqam da Cənubi Qafqazın geosiyasi vəziyyəti ilə bağlıdır. Hamı etiraf edir ki, bu bölgədə kifayət qədər mürəkkəb geosiyasi dinamika mövcuddur. Ermənistanın qeyri-konstruktiv və təcavüzkar siyasət aparması, İranla Qərbin münasibətlərinin daha da gərginləşməsi və terror təhlükəsinin yaxınlaşması kimi amillər son dərəcə həssas durum meydana gətirib. Belə bir vəziyyətdə Cənubi Qafqaza xoş münasibəti olan hər bir dövlət yumşaldıcı, əməkdaşlığa təkan verən, ədalətli, obyektiv siyasət yeritməlidir. Bu məsələdə tərəfkeşlik olmamalıdır. Fransa kimi təcrübəli bir dövlətin atdığı addımlar isə tamamilə bunun tərsidir. Və bu keyfiyyətdə qətiyyən Cənubi Qafqazda sabitliyə, sülhə yardım etmir.

Səbəbi ondan ibarətdir ki, Fransa rəhbərliyi açıqca bəyan edir ki, təcavüzkarın yanındadır, onun ən yaxın dostudur. Bu şərtdə Ermənistan BMT TŞ-nin qətnamələrinə əməl edərmi? Aİ-nin qəbul etdiyi sənədlərin şərtlərini yerinə yetirərmi? Fransa özü imzaladığı sənədləri hüquqi aspektdə gözdən salır, onların adi kağız parçası olduğunu dolayısı ilə nümayiş etdirirsə, təcavüzkar, qeyri-konstruktiv düşüncəyə sahib, psixoloji olaraq xəstə olan Ermənistan rəhbərləri üçün onlar heç kağız parçası da deyil.

Məhz bu baxımdan, hesab edirik ki, Emmanuel Makronun fransızdilli ölkələrin beynəlxalq əməkdaşlıq təşkilatının 17-ci sammitindəki çıxışı siyasi karyerasının ən uğursuz məqamıdır. Orada yalnız Azərbaycana deyil, bütövlükdə dünya siyasətinə, Fransanın dövlət maraqlarına və Aİ-nin gələcəyinə zərər vura biləcək nüanslar vardır. Şübhə etmirik ki, ələhəzrət zaman bunu təsdiq edəcək. O anda Fransa liderlərinin simasına baxmaq daha maraqlı olardı!

**Newtimes.az**

## İsrail səfiri: "Naxçıvan Muxtar Respublikası ilə İsrail arasında geniş əməkdaşlıq imkanları mövcuddur"

Naxçıvan Azərbaycanın əhəmiyyətli və qədim diyarıdır. Bu gün Naxçıvan Muxtar Respublikası ilə İsrail arasında geniş əməkdaşlıq imkanları mövcuddur. Naxçıvanda kənd təsərrüfatının inkişafına xüsusi diqqət yetirilir. Bu sahədə də qarşılıqlı əməkdaşlığı inkişaf etdirmək mümkündür.



Bu sözləri AZƏRTAC-ın Naxçıvan bürosuna müsahibəsində İsrailin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Dan Stav deyib. Səfir qeyd edib ki, Azərbaycanda 3 ildən artıqdır fəaliyyət göstərir və bu, onun Naxçıvana üçüncü səfəridir. "Naxçıvan mənim çox xoşuma gəlir, bu diyarı sevirəm. Səbəbi isə Naxçıvan təbiətinin İsrailə bənzəməsidir. Buranın təmiz havası, işgüzar sakinləri var. Nuh Peyğəmbərin məzarı da bu torpaqdadır. Bu diyarda qonaqları duz-çörəklə qarşılayırlar", - deyən səfir yüksək qonaqpərvərliyə görə minnətdarlığını bildirib.

## Sevinc Fətəliyeva: "Azərbaycanın ərazi bütövlüyü və suverenliyi müzakirə mövzusu deyil"

"Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları əsasında, yəni ölkəmizin ərazi bütövlüyü çərçivəsində həlli istiqamətində qətiyyətli mövqeyini - prinsipial siyasətini davam etdirir: "Azərbaycanın mövqeyi bundan ibarətdir ki, Ermənistan qoşunları Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmalı, işğal faktı aradan qaldırılmalıdır. Bu, BMT Təhlükəsizlik Şurasının qətnamələrində də tələb olunur. Eyni zamanda, münaqişənin həllinin əsasını təşkil edən digər bir sənəddə - Helsinki Yekun Aktında isə ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı prioritet prinsiplər kimi təsbit edilib. Belə olan halda, işğalçı ölkə qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılması zərurətdir". Bu fikirləri Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini, YAP-ın Beynəlxalq münasibətlər şöbəsinin müdiri Sevinc Fətəliyeva deyib.



S.Fətəliyeva bildirib ki, son zamanlar beynəlxalq ictimaiyyət tərəfindən Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı bəyanatların səsləndirilməsi, bu istiqamətdə mühüm sənədlərin qəbul olunması Azərbaycanın haqlı mövqeyinin dəstəklənməsini ifadə edir: "Ermənistan tərəfinin beynəlxalq hüquq normalarına zidd olan iddiaları isə heç bir nəticə vermir, dünya ictimaiyyəti bu cür iddiaları qəbul etmir. Odur ki, işğalçı ölkə rəhbərliyi konstruktivlik nümayiş etdirməli və təxribatçı hərəkətlərdən imtina edərək xalqı sülhə hazırlamalıdır. Sülhə hazırlığın isə ilk növbədə Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılması demək olduğu hər kəsə aydındır".

S. Fətəliyeva vurğulayıb ki, bütün hallarda Azərbaycanın ərazi bütövlüyü və suverenliyi müzakirə mövzusu deyil: "Azərbaycanın mövqeyi qəti və birmənalıdır. Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında diqqətə çatdırdı ki, Azərbaycanın ərazi bütövlüyü heç vaxt danışıqların predmeti olmayıb, bu gün də deyil və heç vaxt olmayacaq".

# "Son 15 il - müstəqil Azərbaycanın inkişaf və yüksəliş yolu"

## YAP Sabunçu rayon təşkilatı bu mövzuda dəyirmi masa keçirib





Dünən YAP Sabunçu rayon təşkilatında "Son 15 il - müstəqil Azərbaycanın inkişaf və yüksəliş yolu" mövzusunda dəyirmi masa keçirilib. Rayon təşkilatının qərargahında keçirilən tədbirdə YAP Sabunçu rayon təşkilatının sədri Mehriban Abasquliyeva Cənab İlham Əliyevin Azərbaycan Prezidenti seçilməsinin 15 illiyinə və 18 Oktyabr Müstəqillik Gününə həsr olunan dəyirmi masa iştirakçılarına geniş məlumat verərək, bildirib ki, hər iki gün əlamətdar və tarixi gündür: "Bu gün dövlətimiz və xalqımız üçün mühüm tarixi, siyasi bir hadisənin ildönümüdür. 1993-cü ildə xalqımızın təkidli xahişi ilə hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyevin cəsarətili və qətiyyəti siyasəti nəticəsində, dövlətimiz mühüm dirçəliş dövrünə qədəm qoydu. Ölkəmizdə vətəndaş cəmiyyəti inkişaf etməyə başladı, sabitlik bərqərar olundu və ilk konstitusiyamız qəbul edildi".

M.Abasquliyeva 2003-cü ildə keçirilən prezident seçkilərindən bəhs edərək, qeyd etdi ki, o zaman Ulu Öndər Heydər Əliyev prezidentliyə namizədliyini Cənab İlham Əliyevin xeyrinə geri götürərkən, xalqa müraciət ünvanladı: "Bu müraciətdə Ulu Öndər Heydər Əliyev Cənab İlham Əliyevə hər zaman inandığını, Onun başladığı taleyüklü məsələləri və planları həyata keçirəcəyinə əmin olduğunu və Ona böyük ümidlər bəslədiyini bildirirdi. Azərbaycan xalqı da Ulu Öndər Heydər Əliyevin səsinə səs verərək, 2003-cü il prezident seçkilərində mütləq əksəriyyətlə xalq Cənab İlham Əliyevi Prezident seçdi. Ötən 15 il ərzində dövlət başçısı Cənab İlham Əliyev Ulu Öndər siyasətini yeni tarixi və siyasi şəraitə uyğun olaraq davam etdirərək, inkişaf etdirdi və bu inkişafa zəmin yaradan əsaslı islahatlar bu gün də davam etdirilir. Onun sözlərinə görə, Azərbaycan tarixdə heç vaxt bugünkü qədər qüdrətli və qüvvətli olmayıb".

Sabunçu rayon təşkilatının sədri, həmçinin, Dövlət Müstəqilliyi Günü ilə bağlı danışaraq, bildirdi ki, bu tarixi gün bugünkü müstəqil və firavan yaşamağımızın ən şirin nemətidir: "Müstəqil yaşamaq, taleyinin sahibi olmaq, öz dövlətini qurmaq hər bir xalqın arzusudur. Azərbaycan xalqı da həmişə bu istəklə yaşayıb. Məhz Ulu Öndər Heydər Əliyevin sayəsində ölkəmizdə yaranmış dərin böhranlı vəziyyət, vətəndaş qarşıdurması aradan qaldırılıb, fəlakət astanasında olan yenicə qazanılmış müstəqilliyimiz itirilmək təhlükəsindən xilas edilib".

Tədbirdə YAP Sabunçu rayon qadınlar şurasının sədri Ramidə İbrahimova Prezident İlham Əliyevin son 15 illik fəaliyyəti dövründə xalqa verdiyi vədlərini - "Mən hər bir azərbaycanlının Prezidenti olacağam" fikrini bütün əməli fəaliyyəti ilə yerinə yetirdiyini bildirib.

Tədbirdə rayon gənclər birliyinin üzvü Orxan Daşdəmirli, rayon təşkilatının fəal üzvlərindən Rafiq Məmmədov, Şaməddin Babayev, rayon Ağsaqqallar Şurasının sədri Nadir Əsədov və başqaları çıxış edərək, diqqətə çatdırıblar ki, bizim xoşbəxtliyimiz ondadır ki, müstəqil, azad dövlətdə Azərbaycan Respublikasının vətəndaşı kimi yaşayırıq və bunu qiymətləndirməliyik, müstəqilliyi hər şeydən üstün tutmalıyıq.

**RƏFİQƏ HÜSEYNOVA**

# DSX məlumat yayıb



Dövlət dəniz Agentliyindən Xəzər dənizinin mərkəzi hissəsində, Pirallahı adasından 21 mil məsafədə Aktau-Bakı marşrutu üzrə hərəkət edən İran İslam Respublikasına məxsus "Nazmehr" quru yük gəmisində heyət üzvlərinin ilkin fərziyyəyə görə zəhərlənməsi ilə əlaqədar təxirəsalınmaz köməklik istənilməsi barədə Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizısinə məlumat daxil olub. DSX-dən SİA-ya verilən xəbərə görə, məlumat əsasında Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsinin sərhəd gözətçi gəmisi dənizdə üzmə şəraitinin əlverişsiz olmasına baxmayaraq dərhal həmin istiqamətə göndərilib.

Sərhəd gözətçi gəmisi 00:30 radələrində "Nazmehr" yük gəmisinə yan alaraq 7 nəfər ağır vəziyyətdə olan heyət üzvünü qəbul edib, ilkin tibbi yardım göstərməklə sahilə Abşeron limanı istiqamətində hərəkət edib. Xəstələrə təcili tibbi yardımın göstərilməsi üçün limana həkim briqadaları cəlb olunub.

# "HRAPARAK": "Korrupsionerlər hakimiyyətə gətirilir"

***"64 yaşlı general-leytenant Enriko Apriamovu sistemə qaytarmağa hazırlaşırlar". SİA xəbər verir ki, bu barədə Ermənistanın "Hraparak" qəzeti yaxın mənbələrinə istinadən yazıb. Məlumatda bildirilir ki, onu Ermənistan silahlı qüvvələrinin Baş qərargahının rəisinə baş məsləhətçi vəzifəsinə təyin etmək istəyirlər.***



"O, 2000-2017-ci illərdə silahlı qüvvələrin Baş qərargahının rəis müavini vəzifəsini daşıyıb", deyə yazan erməni nəşri əlavə edib ki, Enriko Apriamovun adı bir sıra korrupsiya əməllərində hallanıb: "Onun adı müxtəlif korrupsiya qalmaqallarında hallanıb, onlardan ən səsli-küylüsü 2012-ci ildə yüksək rütbəli hərbi çinlilərin silah və sursat satmaları ilə bağlıdır".

"Diqqətçəkicidir ki, 2017-ci ilin 3 may tarixində o, Serj Sarkisyanın qərarı ilə silahlı qüvvələrin Baş qərargahının rəis müavini vəzifəsindən və hərbi xidmətdən azad olunub", deyə qeyd edən nəşr əlavə edib ki, Apriamov Yuri Xaçaturovla və Mikael Arutunyanla yaxın olub. " Hazırkı müdafiə naziri David Tonoyan 2017-ci ildə hətta onu özü ilə bərabər FHN-ə - müavini vəzifəsinə aparıb", yazan erməni qəzeti bu dəfə də Apriamova dəstəyin onun tərəfindən verildiyini istisna etmir.

**Rövşən RƏSULOV**

# Serj Sarkisyan 2008-ci ilin mart qırğınlarına görə məhkəməyə verilib



Ermənistanı uzun müddət idarə edən hərbi xunta rejiminin rəhbəri Serj Sarkisyan 2008-ci ilin mart qırğınlarına görə məhkəməyə verilib. Sabiq prezident Robert Köçəryan isə Nikol Paşinyanla mübarizəyə başlayır. İşğalçı ölkədə etirazlar da səngimir.

AZƏRTAC erməni KİV-lərinə istinadla xəbər verir ki, Ermənistan baş prokurorunun keçmiş müavini Armen Danielyan ölkənin sabiq prezidenti və baş naziri Serj Sarkisyanı məhkəməyə verib. O, 2008-ci il martın 1-də prezident seçkilərinin nəticələrinə qarşı keçirilən etiraz aksiyası ilə bağlı qəbul olunan qərarlara, habelə parlamentdə bu siyasi kampaniyanın nəticələrinin təsdiqlənməsinə müxalif olub. Sarkisyanın göstərişinə qarşı çıxdığı üçün vəzifəsindən azad edilib. Danielyan indi pozulmuş hüquqlarının bərpasını tələb edir.

Bu arada Avropa məhkəməsi isə 10 il əvvəlin dövlət terroru ilə bağlı iki hökm çıxarıb. Məhkəmə İrəvanda 2008-ci ilin mart mitinqləri zamanı insan hüquqlarının pozulduğunu təsdiqləyib. Çıxarılan qərara əsasən, Ermənistan hökuməti həmin vətəndaşlara təzminat ödəməlidir. Sabiq prezident Robert Köçəryan isə Nikol Paşinyanla mübarizəyə başlayır. O, "RİA Novosti"yə müsahibəsində partiya yaratmaq və müxalifət olmaq niyyətini açıqlayıb. Bildirib ki, hazırda Ermənistanın müxalifət düşərgəsində boşluq hiss etdiyi üçün siyasətə qayıtmağı qərara alıb.

İşğalçı ölkədə siyasi gərginliklə yanaşı, etirazlar da səngimir. İrəvanda idmançılar Tumanyan-Abovyan prospektini bağlayıblar. Aksiya Ermənistan Olimpiya Kompleksinin qarşısında davam edib. Bir qrup boksçu bu idman sahəsinə olan laqeyd münasibətdən şikayətçidir. Avtomobil ticarəti ilə məşğul olanlar isə Ermənistan-Gürcüstan sərhədində aksiya keçirirlər. Etirazçıların sözlərinə görə, onlara ölkəyə avtomobil gətirməyə icazə vermirlər. Bu isə bizneslərinə ciddi zərər vurur. İddia olunur ki, hökumət hər yolla iş adamlarını ölkədən qaçırmağa çalışır. Ermənistan mətbuatı yazır ki, hazırda 130 avtomobil Ermənistan tərəfdə, 2000 avtomobil isə Gürcüstan tərəfdə gömrük postunda saxlanılıb.

# Son doqquz ayın nəticələri ölkəmizin qarşıya qoyulan strateji hədəflərə doğru inamla irəlilədiyini bir daha təsdiqləyir

*-Tahir müəllim, bu günlərdə Prezident İlham Əliyevin Sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirildi. Bu dövrdə əldə olunan nəticələr haqqında nə deyə bilərsiniz?*



- Ümumiyyətlə, ölkəmizin inkişafı istiqamətində görülən işlərin təhlil edilməsi, nəticələrin dəyərləndirilməsi və qarşıda dayanan vəzifələrin müəyyənləşdirilməsi çox əhəmiyyətlidir. Prezident İlham Əliyevin Sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin 9 ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası da bu baxımdan önəmlidir. Bu kimi iclaslarda inkişaf göstəriciləri faktlarla sadalanır, nöqsanlar qeyd olunur və bu nöqsanların aradan qaldırılması üçün dövlət başçısı səviyyəsində tapşırıqlar verilir. Beləliklə, gələcək inkişafımız üçün yeni vəzifələr müəyyənləşdirilir.

*Milli Məclisin Regional məsələlər komitəsinin üzvü Tahir Rzayevin yap.org.az-a müsahibəsi*

Prezident İlham Əliyev Nazirlər Kabinetinin iclasında geniş məzmunlu çıxış etdi. Dövlət başçısının vurğuladığı kimi bu ilin ötən dövründə əldə olunan nəticələr müsbətdir. Bu dövrdə də, sosial-iqtisadi sahədə gözəl nəticələr əldə olunub, eləcə də, ölkəmizin beynəlxalq miqyasda mövqeləri daha da möhkəmlənib.

Qeyd edim ki, respublikamızda qeyri-neft iqtisadiyyatının möhkəmləndirilməsinə, istehsal və ixrac imkanlarının artırılmasına hesablanan islahatlar bir-birini tamamlayır ki, bu da investisiyaların daha prioritet sahələrə istiqamətləndirilməsi baxımından çox önəmlidir. Hazırda respublikamızda dövlət başçısının imzaladığı müvafiq Fərmanla təsdiqlənən milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin uğurla icra edilməsi ölkədə reallaşdırılan islahatların səmərəliliyini daha da artırır. Son doqquz ayın nəticələri ölkəmizin qarşıya qoyulan strateji hədəflərə doğru inamla irəlilədiyini bir daha təsdiqləyir. Artıq milli iqtisadiyyatımızda özəl sektorun ümumi payı 70 faizi ötüb ki, bu da böyük nailiyyətdir. Bəhs olunan dövrdə də milli iqtisadiyyatımızda ən yaxşı inkişaf göstəriciləri məhz neftdənkənar istiqamətlərdə qeyd alınıb.

*-Hazırda qeyri-neft sektorunun inkişafına böyük önəm verilir. Bu, cari ilin ötən dövründə də özünü göstərir...*

-Respublikamızda iqtisadi inkişafın yeni paradiqmaları sırasında qeyri-neft sektoru üzrə müasir sənaye quruculuğu siyasəti mühüm yer tutur. Ölkəmizdə müasir texnologiyaların tətbiqinə əsaslanan elm tutumlu qeyri-neft sənayesinin geniş inkişaf perspektivləri var. Azərbaycanın dünya kosmos ailəsinin üzvü olması, xarici bazarlara müdafiə təyinatlı məhsullar çıxartması qürurverici haldır. Qeyd etmək xoşdur ki, Azərbaycan bu yaxınlarda üçüncü peykini orbitə buraxmaqla dünya kosmos ailəsində öz mövqeyini daha da möhkəmləndirib. Hazırda paytaxt Bakıda və regionlarda yeni sənaye müəssisələri yaradılır, paralel şəkildə Pirallahıda, Sumqayıtda, Mingəçevirdə və digər ünvanlarda sənaye parkları formalaşdırılır. Ötən 9 ayda respublikada sənaye istehsalı 2 faiz, qeyri-neft sənayesi isə 10,8 faiz artıb. İlin əvvəlindən bəri əldə olunan bu kimi uğurlar respublikamızda aparılan sənayeləşmə siyasətinin nəticəsidir.

Diqqətəlayiq məqamlardan biri də odur ki, müxtəlif mənbələrdən milli iqtisadiyyatımıza yönəldilən sərmayələrin həcmi ilbəil artır. Bəhs olunan dövrdə respublikamıza yönəldilən investisiyaların həcmi 9 milyard dollara bərabər olub. O cümlədən sərmayələrin 5,6 milyard dolları qeyri-neft sektoruna yönəldilib. Qeyr-neft sektoruna sərmayə qoyuluşunun artması milli iqtisadiyyatımızın bundan sonra da şaxələndirilməsinə xidmət göstərəcək.

Qeyd edim ki, doqquz ayda Azərbaycanın xarici ticarət dövriyyəsi 37 faiz artıb. Ölkəmizdən ixrac da təxminən bir o qədər genişlənib. Qeyri-neft ixracında isə təxminən 14 faiz artım qeydə alınıb.

*- Kənd təsərrüfatının inkişafı da prioritet istiqamətdir. Bu sahədə əldə olunan nəticələri necə dəyərləndirirsiniz?*

-Azərbaycanın iqtisadi potensialının davamlı olaraq artmasında qeyri-neft sektorunun mühüm bir qolu kimi aqrar sektorun rolunu xüsusi qeyd etmək lazımdır. Son illərdə ölkə miqyasında böyük potensiala malik aqrar sektor yeni yanaşmalar əsasında inkişaf etdirilir, burada əmək tutumu böyük, gəlir imkanları geniş olan bitkilərin becərilməsi diqqət mərkəzində saxlanılır. Artıq respublikamızda dövlət dəstəyi hesabına yaradılan 32 fermer təsərrüfatı uğurla fəaliyyət göstərir. Bu təsərrüfatlarda məhsuldarlıq əhəmiyyətli dərəcədə artıb. Ölkədə dəyər zəncirinin bütün halqalarını özündə birləşdirən aqroparkların yaradılması güclü şəkildə təşviq edilir. Perspektivdə ölkədə bitkiçilik və heyvandarlıq üzrə aqroparkların sayını 45-ə çatdırmaq hədəflənib.

Həyata keçirilən bu kimi tədbirlərin nəticəsidir ki, respublikamızda ötən 9 ayda kənd təsərrüfatı 4,3 faiz artıb.

Aqrar sektorda istehsal imkanlarının genişlənməsinin nəticəsidir ki, artıq Azərbaycan bir sıra istiqamətlər üzrə ərzaq təminatını sırf yerli istehsal hesabına həyata keçirir, eyni zamanda, ölkəmizin ixrac imkanları genişlənir. Bir sözlə, ölkəmizdə kənd təsərrüfatının inkişafına xüsusi diqqət var və bu sahə prioritet istiqamətdir. Son illər pambıqçılığın, tütünçülüyün, baramaçılığın inkişafına dəstək də buna sübutdur. Eləcə də, kənd təsərrüfatı məhsullarının xaricə ixracı da əhəmiyyətli dərəcədə artmaqdadır. Təbii ki, bütün bunlar dövlətin dəstəyi ilə baş verir.

*- Azərbaycanın regionlarının sosial-iqtisadi inkişafı baxımından mühüm nəticələr əldə olunmaqdadır. Sizcə, bunun əsasında hansı amillər dayanır?*

- Azərbaycanda 2004-cü ildən uğurla reallaşdırılan regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramları çərçivəsində bölgələrimizin siması əhəmiyyətli dərəcədə dəyişməkdədir. Bölgələrlə paytaxt arasında fərqin minimuma enməsində və bəhs olunan müsbət dinamikanın yaranmasında Prezident İlham Əliyevin respublikanın hərtərəfli və tarazlı inkişafına göstərdiyi diqqət, siyasi iradə əsas amil rolunda çıxış edib. Dövlət proqramlarında nəzərdə tutulan tədbirlərin, müxtəlif istiqamətləri əhatə edən layihələrin reallaşdırılması sayəsində respublikanın bölgələrində yeni müsbət reallıqlar yaranıb və hədəflərə çatmaq üçün sistemli tədbirlər həyata keçirilir.

Bildiyiniz kimi, indiyə qədər üç dövlət proqramı qəbul olunub və bu proqramlar bir birini tamamlayır. Artıq üçüncü dövlət proqramının icrası bu il başa çatır. Sonuncu proqramda daha köklü məsələlər öz əksini tapır. Bu proqramlar nəticəsində bölgələri bir çox sosial problemləri həllini tapıb. Sosial obyektlər tikilib istifadəyə verilib ki, xeyli sayda məktəbləri, tibb ocaqlarını və digərlərini əhatə edir.

Ötən dövrdə minlərlə kilometr yeni yollar çəkilib, körpülər tikilib, kəndlərin əksəriyyəti qazlaşdırılıb, elektrik enerjisi problemi həll olunub. Bütün bunlar əhalinin rahat yaşayışını təmin etmək üçündür. Regionlarda kənd təsərrüfatının inkişafı ilə yanaşı, sənaye müəssisələri də tikilib istifadəyə verilir ki, bu da yeni iş yerlərinin yaradılması deməkdir.

Prezident İlham Əliyev tez-tez bölgələrə səfər edir, görülən işlərlə şəxsən tanış olur. Dövlət başçısının bölgələrə hər bir səfəri yeni-yeni obyektlərin açılışı, yeni yolların, məktəblərin, xəstəxanaların, müəssisələrin istifadəyə verilməsi deməkdir. Son vaxtlar, dövlət başçısının Quba, Xızı rayonlarına, eləcə də cənub bölgəsinə səfərləri də fikrimi təsdiqləyir. Həmin səfərlər zamanı xeyli sayda obyektin açılışı reallaşdı. Bu səfərlərdə cənab Prezident vətəndaşlarla görüşür, onları dinləyir və qaldırılan məsələlərin həlli istiqamətində müvafiq tapşırıqlar verir.

*-Tahir müəllim, regionların sosial-iqtisadi inkişafı təmsil etdiyiniz Ağcabədi rayonunda özünü necə göstərir?*

- Ağcabədi rayonu da digər bölgələrimiz kimi xeyli dərəcədə inkişaf edib. Rayonumuz tanınmaz dərəcədə dəyişib. Son illər rayonda 40-dan artıq yeni məktəb tikilib və əsaslı təmir olunub, yeni yollar çəkilib, rayon xəstəxanası tikilib istifadəyə verilib və s. Rayonun su-kanalizasiya sistemi də yekunlaşıb, rayonun mərkəzinə yeni su xətti çəkilib.

Yəni əhalinin rifahının daha da yüksəlməsi üçün zəruri addımlar atılır. Artıq kənd yolları da yenidən qurulub. Elektrik enerjisi problemi tam həllini tapıb. Kəndlərin böyük əksəriyyəti qazlaşdırılıb. Bir neçə kənd qalıb ki, onların da qazlaşdırılması prosesi davam edir. Kənd təsərrüfatı da rayonumuzda inkişaf edir. Bilirsiniz ki, Ağcabədi pambıqçılığın inkişafı baxımından respublikada ən öndə gedən rayonlar sırasındadır. Bununla yanaşı, baramaçılıq da inkişaf edir. İnsanlar baramaçılıqdan da böyük gəlir götürürlər.

Bir sözlə, rayonumuz sosial-iqtisadi cəhətdən uğurla inkişaf edir. Bu, hər bir bölgənin reallığıdır. Hesab edirəm ki, republikamızda hər bir sahədə əldə olunan uğurları əhali arasında geniş təbliğ etməliyik. Çünki bəzi dairələr uğurlarımıza kölgə salmağa çalışırlar. Amma onlar məqsədlərinə çata bilməyəcəklər. Onlara ən tutarlı cavab ölkəmizin inamla irəli getməsi, hər bir sahədə yeni-yeni uğurların qazanılmasıdır.

## "İnternet istifadəçiləri" göstəricisinə görə Azərbaycan digər MDB ölkələri ilə müqayisədə liderdir



Dünya İqtisadi Forumu 2018-ci il üzrə "Qlobal Rəqabətqabiliyyətlilik Hesabatı"nı ("The Global Competiviness Report 2018") dərc edib. Bu hesabat yeni metodologiya (yeni nəsil "4.0") əsasında hazırlanıb. Belə ki, yeni hesabatda əvvəlki hesabatın 114 göstəricisindən 84-ü çıxarılıb və 68 yeni göstərici əlavə edilib. Ümumilikdə, sözügedən hesabatda 98 göstərici üzrə qiymətləndirmə aparılıb.

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, yeni hesabata əsasən, "Qlobal Rəqabətqabiliyyətlilik İndeksi"ndə Azərbaycan dünyanın 140 ölkəsi arasında 69-cu yerdədir. Bu indeks üzrə ABŞ 1-ci yeri, Sinqapur 2-ci yeri, Almaniya isə 3-cü yeri tutub. İsveçrə, Yaponiya, Hollandiya, Honkonq, Böyük Britaniya, İsveç və Danimarka kimi ölkələr isə ilk onluqda qərarlaşıb.

Azərbaycan sözügedən hesabatın "Əlverişli mühit" (Enabling Environment) bölməsinin "İnstitutlar" (İnstitutions) göstəricisi üzrə 58-ci, İnfrastruktur (İnfrastructure) göstəricisi üzrə 46-cı, İKT-nin istifadə səviyyəsi (ICT adoption) göstəricisi üzrə 69-cu yerdədir.

Bundan başqa, ölkəmiz İKT-dən istifadə səviyyəsi (ICT adoption) göstəricisinin hər 100 nəfərə düşən mobil abunəçiləri alt göstəricisi üzrə 97-ci yeri, hər 100 nəfərə düşən mobil genişzolaqlı abunəçiləri göstəricisi üzrə 88-ci yeri, hər 100 nəfərə düşən sabit genişzolaqlı internet abunəçiləri göstəricisi üzrə 53-cü yeri, hər 100 nəfərə düşən fiber-optik internet istifadəçiləri göstəricisi üzrə 55-ci yeri, internet istifadəçiləri göstəriciləri üzrə 36-cı yeri tutub. "İnternet istifadəçiləri" göstəricisinə görə ölkəmiz digər MDB ölkələri ilə müqayisədə liderdir.

Azərbaycan hesabatın "İnnovativ Ekosistem" (İnnovation Ecosystem) bölməsinin "Biznesin dinamikliyi" göstəricisi üzrə dünyanın 140 ölkəsi arasında 31-ci yerdə (biznesə başlamaq üçün tələb olunan günlərin sayı alt-göstəricisi üzrə 17-ci, sahibkarlıq riskləri alt-göstəricisi üzrə 21-ci və ideyaların şirkətə təsiri alt-göstəricisi üzrə 25-ci yerdə), "İnnovasiya potensialı" göstəricisi üzrə isə 71-ci yerdə qərarlaşıb. "İnfrastruktur" göstəricisinin "Hava nəqliyyatında xidmətlərinin effektivliyi" (Efficiency of air transport services) alt-göstəricisi üzrə ölkəmiz 12-ci, "Qatar xidmətlərinin keyfiyyəti" (Efficiency of train services) üzrə 17-ci, "Dəmir yollarının sıxlığı" alt-göstəricisi üzrə 32-ci, "Yolların keyfiyyəti" (Quality of roads) üzrə 34-cü yeri tutub. Qeyd edək ki, Azərbaycan "İnfrastruktur" və "Biznesin dinamikliyi" alt-göstəricilərinə görə digər MDB ölkələri ilə müqayisədə irəli mövqelərdə qərarlaşıb.

# Suraxanı rayonunda cari ilin doqquz ayının yekunları müzakirə olunub

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasındakı nitqindən irəli gələn vəzifələr Suraxanı rayon icra hakimiyyəti başçısı yanında Şuranın geniş iclasında ətraflı müzakirə olunub və qarşıda duran vəzifələr konkretləşdirilib.***







Şuranın geniş iclasında məruzə ilə çıxış edən rayon icra hakimiyyətinin başçısı İlqar Abbasov vurğulayıb ki, 2018-ci il ölkəmiz üçün uğurlu il olmuş, Azərbaycan öz dinamik inkişafını təmin etmiş və ölkəmiz əmin-amanlıq, sabitlik, təhlükəsizlik şəraitində yaşamışdır: "Hesabat dövrü ərzində Suraxanı rayonunun hərtərəfli sosial-iqtisadi inkişafı təmin edilmiş, 2018-ci ilin 9 ayı ərzində Suraxanı rayonunda ilkin hesablamalara görə, sənaye məhsulunun istehsalı 335,5 milyon manat, tikinti təşkilatlarının öz gücləri ilə yerinə yetirdikləri podrat işlərin həcmi 45,6 milyon manat, nəqliyyat xidmətləri 7,7 milyon manat, pərakəndə ticarət dövriyyəsi 595,8 milyon manat olmuş, orta aylıq əmək haqqı 571 manat təşkil etmiş, 2832 yeni iş yeri açılmışdır. Azərbaycan Prezidenti Cənab İlham Əliyev may ayının 22-də növbəti dəfə Suraxanı rayonuna gələrək, Qaraçuxur qəsəbəsində "ATEF Şirkətlər Qrupu" MMC tərəfindən inşa edilmiş yüksək gərginlikli avadanlıqlar zavodunun açılışında iştirak etmişdir".

İ.Abbasov rayonun mərkəzi küçələrinin estetik görünüşünün yaxşılaşdırılması məqsədi ilə RİH tərəfindən yeni layihələr hazırlanaraq yolların ətrafında yerləşən qeyri-yaşayış sahələrinin, fərdi yaşayış evlərinin və hasarların abadlaşdırılması işlərinin davam etdirildiyini vurğulayıb. Onun sözlərinə görə, Əmircan-Qaraçuxur yolunda qanunsuz fəaliyyət göstərən daşqum bazarı yığışdırılmış, ərazi abadlaşdırılmışdır: "İstilik sistemlərində təmir-bərpa işləri davam etdirilmiş, 510 p.m istilik xətti dəyişdirilmiş, istilik sisteminə qoşulmuş 324 çoxmənzilli yaşayış binası, 34 məktəb, 35 uşaq bağçası və 12 səhiyyə obyektinin hər birinə istilik verilişi təmin olunmuşdur. Hazırda 2018-2019-cu illərin istilik mövsümünə hazırlıq işləri başa çatmaq üzrədir".

Azərbaycan Respublikasının Prezidenti yanında Mənzil İnşaatı Dövlət Agentliyinin ikinci layihəsi olan Hövsan Yaşayış Kompleksində binaların tikintisi, Qaraçuxur qəsəbəsində Neftçilər Parkının əsaslı təmiri davam etdirilmiş, 5 abad məhəllə salınmış, Yeni Günəşli "D" yaşayış sahəsində şahmat məktəbi istifadəyə verilmişdir. Rayon icra başçısı Hövsan qəsəbəsi, Hafiz Quliyev küçəsi 22 saylı yataqxananın yardımçı binasının dam örtüyünün təmir olunduğunu, avqust ayında rayonda məskunlaşmış 58 məcburi köçkün ailəsi Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi tərəfindən onlar üçün tikilmiş yeni binalara köçürüldüyünü diqqətə çatdırıb:"İDEA İctimai Birliyinin təşəbbüsü ilə "Bizim Həyət" adlı layihə çərçivəsində Hövsan qəsəbəsi, Elman Qasımov küçəsi 15, 15A, 15B saylı yaşayış binalarının həyətində abad məhəllənin salınması işləri də davam etdirilmiş, ətraf mühitin yaxşılaşdırılması tədbirləri davam etdirilmiş, rayon ərazisində 3767 ədəd ağac əkilmiş, neft əməliyyat şirkətləri tərəfindən ümumi sahəsi 5,77 hektar olan müxtəlif ölçülü 79 gölməçə qurudulmuş, neftlə çirklənmiş 20,0 hektar torpaq sahəsi təmizlənmişdir".

İ.Abbasov dövlət idman siyasətinin həyata keçirilməsi ilə bağlı rayonda 81 tədbir keçirildiyini, bu tədbirlərdə 14810 idmançı, o cümlədən, 3400 məktəblinin iştirak etdiyini qeyd edib.

Şuranın geniş iclasında çıxış edənlər uğurlara və problemlərə diqqət yetirmiş, qarşıda duran vəzifələrlə bağlı fikir və təkliflərini söyləmişlər.

Şuranın geniş iclasında Milli Məclisin deputatları Ağacan Abiyev və Fərəc Quliyev iştirak etmişlər.

***Zümrüd BAYRAMOVA***

# Müstəqilliyimiz yenilməzdir, əbədidir, dönməzdir

## *Qaradağ rayonunda "18 oktyabr - Azərbaycanın Dövlət Müstəqilliyi Günü"nə həsr olunmuş dəyirmi masa keçirilib*



***İlk öncə, tədbir iştirakçıları Ulu Öndərin abidəsi önünə güllər düzüb, dahi şəxsiyyətə hörmət və ehtiramlarını bildiriblər.***

Qaradağ rayonu Lökbatan qəsəbəsində yerləşən Heydər Əliyev Mərkəzində keçirilən tədbiri giriş sözü ilə açan Qaradağ rayon icra hakimiyyəti başçısının birinci müavini Emil Abbasov çıxış edərək, 1991-ci ildə yaranmış tarixi şəraitin nəticəsi olaraq, Azərbaycan Ali Sovetinin avqustun 30-da Müstəqillik Bəyannaməsini, oktyabrın 18-də isə müstəqillik haqqında Konstitusiya Aktını qəbul etdiyini bildirib. E.Abbasov bir xalq üçün dövlət müstəqilliyi, müstəqil dövlətin olmasının ən önəmli məsələlərdən biri, müstəqilliyin qorunub- saxlanılmasının onun qazanılmasından qat-qat çətin olduğunu vurğulamışdır. O, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev tərəfindən qorunub-saxlanılmış müstəqilliyimizin bu gün Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin rəhbərliyi ilə daha da möhkəmləndiyini qeyd edib.

Tədbirdə millət vəkili, YAP Qaradağ rayon təşkilatının sədri Aydın Hüseynov çıxış edərək, qeyd edib ki, tarixi proseslər və hadisələr nəticəsində Azərbaycan xalqı müəyyən dövrlərdə özünün dövlət müstəqilliyini itiribdir: "Dövlət müstəqilliyinin bərpası Azərbaycan xalqının və millətinin başlıca məqsədi olubdur. 1918-ci ildə Şərqdə ilk demokratik respublikanın yaranması böyük məna kəsb etdi və 23 ay davam etdi. Müstəqil dövlət yaradılması, dövlətçiliyimizin bərpası ideyası müstəqilliyimizin itirilməsindən sonrakı mərhələdə xeyli müddət davam etmişdir".

A.Hüseynov qeyd etdi ki, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin hakimiyyətə yenidən qayıdışı müstəqilliyimizə yeni nəfəs verdiyini bildirdi: "Ulu Öndər Heydər Əliyevin Azərbaycanın qüdrətli dövlətə çevrilməsinə yönəlmiş müdrik siyasəti bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir".

Digər çıxış edənlər bu günün xalqımızın tarixində ən önəmli gün olduğunu, xalqımızın azadlıq və müstəqillik yolunda keşməkeşli mübarizələr və qurbanlarla dolu tarixi bir yol keçdiyini nəzərə çatdırdılar.

***R.HÜSEYNOVA***

## Əziz Qaralov: "Badamdar-20-ci sahə avtomobil yolunun sağ kənarındakı sürüşmə zonasında çatlar böyüyür"



Badamdar-20-ci sahə avtomobil yolunun sağ kənarındakı sürüşmə zonasında çatlar böyüyür və yaşayış sahələrinə yaxınlaşır. Eyni zamanda, sürüşmə kütləsinin qərb hissəsində yaranmış çatlarda nisbi də olsa, gözlə görülə biləcək artım müşahidə edilir. Yəni sürüşmə kütləsi üzərində gərginlik qalmaqdadır. AZƏRTAC xəbər verir ki, bu sözləri Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Geoloji Kəşfiyyat Xidmətinin Geoloji planlama ekspedisiyasının rəisi Əziz Qaralov sürüşmə zonasında keçirilən brifinqdə deyib.

Onun sözlərinə görə, hazırda ölkədəki sürüşmə zonalarında aktivlik müşahidə olunur. Zığ qəsəbəsi, Masazırdakı "Zəli gölü" adlanan ərazidə, Abşeron rayonunun "At yalı" adlanan yaşayış massivindəki sürüşmə sahəsində aktivlik müşahidə olunur. Bu aktivlik Şamaxı, İsmayıllı rayonlarındakı sürüşmə sahələrində var. Bunlara Şamaxının Muğanlı kəndində, İsmayıllı yolunda və Bakı-Şamaxı-Yevlax yolunun 132-ci kilometrliyində olan gərginlik də aiddir. Burada müəyyən yerlərdə uçqun tipli sürüşmələr qeydə alınıb. Bundan əlavə, İsmayıllı rayonunun Lahıc inzibati ərazi vahidliyinə daxil olan Qoydan kəndində iki ay öncə sürüşmə olub. Bu sürüşmə də aktiv fazadadır və yaşayış evlərinin divarlarına çatıb. Bundan əlavə Lerikdə, Yardımlıda, Lerik yolunun bir neçə kilometrliyində uçqun tipli çökmə-sürüşmə hadisəsi baş verib.

# Erməni polisləri Paşinyanın əlindən "qan ağlayırlar"

*Hraparak: "Onlarla əməkdaş bu sistemi tərk edərək, müqavilələrini pozublar"*



Ermənistan rəhbərliyinin Azərbaycanın işğal etdiyi ərazilərdə və Azərbaycanla sərhədlərdə polis postları qurmasından sonra, bu orqanda çalışan insanlar öz narazılıqlarını ifadə etməyə başlayıblar. Belə ki, Serj Sarkisyan dönəmində Yerevanda rahat şəkildə fəaliyyət göstərən, eləcə də, qazanc baxımından münbit həyat tərzi sürən polislər Nikol Paşinyanın bu qərarına qarşı öz etirazlarını bildirməkdədirlər. Hətta son vaxtlar hüquq-mühafizə orqanlarının sıralarını tərk edənlərin sayı durmadan artmağa başlayıb. Artıq bununla bağlı dövlətin müvafiq qurumlarında hüquq-mühafizə orqanları əməkdaşlarının kəskin azalması problemi müzakirələrə çıxarılır, bunun nəticəsinin heç də yaxşı olmayacağı barədə fikirlər səsləndirilir.

### "Polislər kifayət qədər təhlükəli ərazilərdə xidmət aparırlar"

Sözügedən mövzuya Ermənistanın "Hraparak" qəzeti toxunub. Erməni nəşrinin yazdığına görə, polisin daxili qoşunlarında narazılıqlar get-gedə artır. "Köhnə Ermənistanda yumşaq şəraitdə işləmiş polislər yeni şəraitə uyğunlaşa bilmirlər" yazan qəzet əlavə edir ki, işğal olunmuş ərazilərimizdə polis xidmətinin aparılması ilə bağlı qərar Paşinyan tərəfindən hələ avqust ayında verilmişdi. Belə ki, onlar növbəli şəkildə 15 günlük təmas xətlərinə göndərilirlər. "Bununla yanaşı, polislər kifayət qədər təhlükəli ərazilərdə xidmət aparırlar" deyə "Hraparak" qeyd edir. Bu arada, Ermənistanın daxili işlər nazirliyi hüquq-mühafizə orqanlarından kütləvi istefaların baş alıb-getməsi gerçəkliyini gizlədir.

### "Onlar aldıqları məvacibin çox az olduğunu və bunun müqabilində həyatlarını təhlükəyə atmaq istəmədiklərini deyirlər"

Belə ki, Ermənistanın digər informasiya mənbələri yazsalar da, fakt budur ki, polis əməkdaşları öz kəskin narazılıqlarını ifadə edirlər. Adıçəkilən erməni nəşri də polislərin etirazlarını ictimailəşdirib. SİTAT: "Bizə belə məlumatlar çatır ki, onlarla əməkdaş bu sistemi tərk edərək, müqavilələrini pozublar. Onlar bu xidmətlərinə görə, ayda 32 min dram (təxminən, 60 ABŞ dolları-red.) əlavə məvacibin çox az olduğunu və bunun müqabilində həyatlarını təhlükəyə atmaq istəmədiklərini deyirlər".

Görünən isə budur ki, artıq erməni polisinin də Paşinyana olan ümidləri itib və bu reallıq onun dekabrda keçirmək iddiasında olduğu növbədənkənar parlament seçkilərinə çox mənfi təsir göstərəcək. Çünki narazı xalq kütləsi ilə yanaşı, hüquq-mühafizə orqanlarının da etirazları bu cür qənaətə gəlməyə zəmin yaradır. Hətta belə gedərsə, Yerevanda ikinci "Sasna Srer" hadisələrinin də yaşanmasını ehtimal etmek elə də çətinlik yaratmır.

**Rövşən NURƏDDİNOĞLU**

# "Hakimiyyət hərisindən demokratiya ummaq əbəsdir"



"Bu ilin dekabr ayında Ermənistanda erkən parlament seçkilərinin keçirilməsi qərarı çox tələsik qərardır". Bunu "Milli Təhlükəsizlik Partiyası"nın sədri Garnik İsaqulyan jurnalistlərlə görüş zamanı deyib. Ermənistana məxsus "news.am" saytında yayımlanan məlumatda İsaqulyan bu tələskənliyi inqilabdan sonrakı eyforiyadan suiistifadə edilməsi kimi şərh edib. Eyni zamanda, bunu hər hansı rəqabətin olmamasından sui-istifadə edərək, hakimiyyət qurma cəhdi adlandırıb.

Bu yolla, yeni rəqabətin aradan qaldırılması ilə siyasi proseslərdə iştirak etmək baxımından, Ermənistanın sabiq prezidenti Robert Koçaryanın da qapıları bağlanıb. Bir sözlə, eks-prezidentin də proseslərdən kənarlaşdırılması planlaşdırılır. Daha dəqiq desək, Nikol Paşinyan seçkilərə rəqibsiz getməyi planlaşdırır.

Garnik İsaqulyan jurnalistlərlə görüş zamanı onu da diqqətə çatdırıb ki, gözlənilən növbədənkənar seçkilərdə heç də "Vətəndaş Müqaviləsi" Partiyası qazanmayacaq: "Qələbə olsa belə bunun partiyaya heç bir aidiyyatı yoxdur. Qələbə çalınacağı təqdirdə, qazanan yalnız şəxsən Nikol Paşinyanın özü olacaq. Partiyaya gəldikdə isə, onun da bundan sonra hələ bir siyasi qüvvəyə çevriləcəyini zaman göstərəcək. Məsələ burasındadır ki, erməni cəmiyyəti də Paşinyanın təzyiqlərini etiraf edir. Baxmayaraq ki, istefa verən Paşinyan küçə yürüşlərindən, küçədə yığışanların gücündən istifadə etməsini demokratiya adlandırır. Hətta demokratiya adı altında seçkilərdə iştirakı qadağan edən, dolayısı ilə hədələr gələn Nikol buna xalq hakimiyyəti deməkdən çəkinmir".

Ermənistan cəmiyyəti, əslində, demokratiya dediyi bu mütləq hakimiyyətliliyin təzyiqi altında əzilir. Siyasi mübarizə, söz azadlığı, vətəndaş hüquqlarından danışmağa da dəymez. Demokratiya alətə çevrilib və bu alət indi Paşinyanın əlində sırf təzyiq vasitəsi kimi istifadə edilir. Əgər kütlə elə hesab edirsə ki, bu demokratiyadır, bərk yanılır. Yox, əgər bu xaosdan, bu mütləq hakimiyyətlilikdən yararlanan Paşinyana ümid edirsə, bu zaman çürük arzuların ardınca düşdüyünün fərqində olmalıdır. Fərqində olmalıdır ki, Nikol Paşinyanın simasında hakimiyyət hərisindən demokratiya ummaq əbəsdir və bu dırnaqarası demokratiya yaxşı heç nə vəd etmir. Belə bir hakimiyyət, ələlxüsus, demokratiyadan alət kimi istifadə edən Paşinyan hakimiyyəti Ermənistana fəlakətdən başqa heç nə vəd edə bilməz.

**İnam HACIYEV**

# "Armenianreport": "Belə getsə, xalqa Paşinyanı öz illüziyalarından xilas etmək lazım gələcək"



***"Yoxsulluq inqilaba, inqilab isə yoxsulluğa doğru aparır". Fransız klassiki Viktor Hüqonun bu fikirləri ilə "Armenianreport" saytının siyasi analitiki Tevos Arşakyan erməni xalqının ötən 6 ayda Nikol Paşinyandan gözləntiləri barədə yazdığı pessimist məqaləsində qeyd edib və bu gözləntilərin heç də reallaşmadığını bildirib. "Küçədə XXI əsrdir və biz heç də Fransada deyil, əksinə, postinqilabçı Ermənistanında yaşayırıq.***

Lakin fransız klassikinin bu sözləri bizim reallığa çox uyğundur" deyə qeyd edən erməni müəllif daha sonra yazır: "Bəs biz Nikol Paşinyanın etirazçı hərəkatı naminə küçələrə çıxarkən nəyə ümid edirdik? İlk növbədə, Serj Sarkisyan rejiminin xalqı və ölkəni dirədiyi yoxsulluq dalanından canımızı qurtarmaq üçün. Lakin biz "ədalət və zəfər inqilabı"nın üzərindən keçən 6 aydan sonra bütün bunların əvəzinə, nə qazandıq? Doğrudur, elə həmin yoxsulluğa ki, ondan qurtulacağımıza inanırdıq. Hələ, bu da azmış kimi, erməni xalqının ümid etdiyi insan bu gün öz illüziyalarının əsiridir və ümumiyyətlə, ölkədəki vəziyyət barədə informasiyaya malik deyil. Özünüz nəticə çıxarın dəyərli oxucular..."

### "Onun sözlərinə görə, Ermənistanda işsizlik və iş yerlərinin olmaması barədə çox danışırlar, demə, gerçəklikdə iş əlindən tərpənmək belə olmurmuş..."

Beləliklə, erməni müəllif Nikol Paşinyanın verdiyi vədlərinin heç birinə əməl etmədiyini qeyd edir və bununla yanaşı, digər məqamlara toxunur. SİTAT: "Kənd təsərrüfatı nazirliyinin aparatına nazir vəzifəsini müvəqqəti icra edən Geqam Gevorkyanı təqdim edərkən, Nikol Paşinyan təxəyyülünü geniş və əhatəli ifadələrin öhdəsinə buraxdı və sən demə, ölkədəki vəziyyət heç də pis deyilmiş, sadəcə, xalq işləmək istəmirmiş. Onun sözlərinə görə, Ermənistanda işsizlik və iş yerlərinin olmaması barədə çox danışırlar, demə, gerçəklikdə iş əlindən tərpənmək belə olmurmuş..."

### "Paşinyan bu kimi axmaq fikirlər barədə danışarkən"

"Bu gün bizim ölkədə minlərlə vakansiyalar var, işləmək üçün sonsuz mühit mövcuddur, hansı ki, istifadə olunmur. Biz, bu ismarıcı çox dəqiq şəkildə vətəndaşlarımıza çatdırmalıyıq, çünki ölkədə sosial-iqtisadi problemlər kifayət qədərdir və biz bütün problemlərin hökumətin həll etməli olması ətrafındakı düşüncələrdən kənara çıxmalıyıq" deyə Paşinyanın sitatını misal gətirən jurnalist buna cavab olaraq yazıb: "Burada, anlaşılmazlıq yaranır. Bu kimi axmaq fikirlər barədə danışarkən, yəni bizləri işləmək istəməməkdə, tənbəllikdə ittiham edən fikirləri səsləndirərkən, ya Paşinyana doğru məlumatlar verilmir, ya da onun özü mövcud vəziyyətə və informasiyalara sahib ola bilmir. Halbuki məsələ bizdə deyil. O, hansı minlərlə vakansiyadan danışır ki, Beynəlxalq Əmək Təşkilatının son hesablamalarına görə, Ermənistanda qadın və kişilərin işsizlik səviyyəsi dünyada ən pis həddədir..."

Beləliklə, faiz həddi ilə işsizlik, mühacirət və s. kimi problemləri önə sürən erməni müəllif onu da qeyd edir ki, ölkədə hər onuncu vətəndaş ac yatır və hətta minimal şəraiti belə özlərinə çox bilir. "Niyə? Ona görə ki, bu insanlar Ermənistanda özlərinə iş tapa bilmirlər. Əgər ölkədə vakansiyalar varsa, bu yalnız hökumətin hesabatlarında ola bilər" deyə Tevos Arşakyan yazıb.

### "Bəs onda kim həmin problemləri həll etməlidir? Yad dayılarmı?"

Erməni müəllif davam edib: "Başqa sözlərlə, Ermənistanda siyasi dəyişikliklər iqtisadi cəhətdən müsbət irəliləyişlər əldə edə bilməyib və bu gün biz görürük ki, hökumət yalnız illüziyaların əsiri deyil, eyni zamanda, problemləri vətəndaşların çiyinlərinə yükləyir. Demə ki, biz hökumətin bu problemləri həll etməli olması düşüncələrindən kənara çıxmalıyımışıq. Bəs onda kim həmin problemləri həll etməlidir? Yad dayılarmı?"

### "Yoxsulluqdan qaçarkən, yenə gedib ora düşdük"

Erməni siyasi analitiki öz yazısında, bir damla da olsa, Respublika Partiyasının tərəfdarı olmadığını, xüsusilə, qeyd edib və belə bir iddia da irəli sürüb ki, Paşinyan yarım il ərzində, öz siyasi rəqiblərinə qarşı müqavimət göstərmək üçün hakimiyyətini möhkəmləndirməklə məşğul olub: "İnsanlar ondan iqtisadi artıma səbəb olacaq islahatlar, sərmayə bumu, əhalinin sosial-məişət şəraitinin yaxşılaşdırılması kimi addımları gözləyirdi. Ancaq biz bunların heç birini görmədik. Yoxsulluqdan qaçarkən, yenə gedib ora düşdük. Çox inanmaq istərdik ki, bu, müvəqqətidir. Əks halda, xalq Paşinyanı xilas etməli olacaq. Əsirlikdən və illüziyalarından..."

**Rövşən RƏSULOV**



# “Saxta vəsiqədən hansısa quldura, oğruya və ləyaqətsizə də verilib”

*Elşən Musayev: “Əli Kərimli və Arif Hacılı saxta vəsiqəni satıb, dövlətə qarşı terrorçu və kamikadze yetişdiriblər”*



*Müsahibimiz Demokratik Maarifçilik Partiyasının sədri, millət vəkili Elşən Musayevdir*

***- Elşən müəllim, Əli Kərimli və Arif Hacılının xaricə getmək istəyənlərə partiya vəsiqələrini satmaları barədə yeni faktlar üzə çıxıb. Bu kimi faktlar Azərbaycan qanunvericiliyinə zidd deyilmi?***

- Bu cür hallar, nəinki qanunvericiliyə, ümumən mənəvi tərəflər də nəzərə alınaraq, hər şeyə ziddir. Mənəvi tərəf, ona deyirəm ki, illər boyunca sadəlövh müsavatçılar, cəbhəçilər uğursuz liderlərinin badına gediblər, həyatda heç nəyə nail ola bilməyiblər və həmişə onlara romantik əhval-ruhiyyə təlqin olunub. Digər tərəfdə isə, Müsavata və AXCP-yə dəxli olmayanlar pulla vəsiqə alıblar, Avropada keflərinə baxıblar, axırda da millətə və dövlətə uzaq məkanlardan riyakarca dil uzadıblar. Yəni hətta bu prizmadan belə baxsaq, əsl müsavatçıların, əsl cəbhəçilərin haqqına girilib, onların daşıdığı vəsiqədən hansısa quldura, oğruya və ləyaqətsizə də verilib. Təbii ki, Əli Kərimli və Arif Hacılı tərəfindən. Əli Kərimli və Arif Hacılı saxta vəsiqəni satıb, dövlətə qarşı terrorçu və kamikadze yetişdiriblər. Bir vaxtlar dəb idi, mitinqdə şəkil çəkdirib, saxta vəsiqə alıb, ardınca da mühacirətə getmək. Amma belə faktlar ard-arda ifşa olunandan sonra proses bir az səngidi. Demək yenə başlayıblar. Ortalıqda yeni faktlar varsa, buna kimsə heyrətlənməsin. Kərimlinin də, Hacılının da xisləti budur. Onlar bu millətə və dövlətə ziyan olan nə varsa, onu etməyə heç vaxt çəkinməyiblər. İndi də ənənəvi yollarına davam etdirirlər.

***- Deməк olarmı ki, hazırda Avropanın bir sıra şəhərlərində Azərbaycan dövləti və xalqı əleyhinə şər və böhtan səsləndirənlər, məhz AXCP və Müsavatdan əldə etdikləri saxta vəsiqələr hesabına orada məskunlaşıblar?***

- Əlbəttə, əksəriyyəti həmin kateqoriyadır. Ölkə daxilində müxalifətçiliyi də cücə kimi edənlər, sərhədin o tayına adlayan kimi, şir və pələng olublar. Halbuki həmin xalq düşmənlərinin bu millətə və bu dövlətə heç bir aidiyyəti yoxdur. Nə vaxtsa şərait olub, dabana tüpürüb qaçıblar, müxalifətçilik donu altında maskalanıblar, indi də artistlik edirlər. Özü də demokrat adı ilə. Cinayətkar heç vaxt demokrat ola bilməz. Bunların ruhu kirlənib, bunlar millətə qənim kəsilib. Belələrinin danışmağa, ələlxüsus da, ədalətdən danışmağa heç bir haqları yoxdur. Çünki həm təmsil olunduqları cəbhədə, həm cəmiyyət içində, həm ictimai rəydə özlərinə qarşı ikrah hissi yaradıblar. Onlara saxta vəsiqə verib, ardınca bu millətə və dövlətə qarşı yönəldənlər isə mütləq cəzalarını almalıdırlar.

***- Saxta vəsiqələr satdıqlarına görə, Azərbaycan hüquq-mühafizə orqanları Müsavat və AXCP rəhbərliyinə qarşı hüquqi tədbirlər görə bilərmi?***

- Təbii, burada hüquq pozuntusu var. Mən Milli Məclisin plenar iclasında da bu məsələyə toxunmuşam və hüquq-mühafizə orqanlarına da müraciət etmişəm ki, məlum ünsürlərin ekstradisiya olunması, onların Azərbaycandakı dəstəkçilərinin ifşası, aşkarlanması və məsuliyyətə cəlb edilməsi istiqamətində əməli fəaliyyətlərini daha da gücləndirsinlər. Fakt budur ki, beləri dövlətə və millətə, ölkənin ləyaqətli insanlarına qarşı qənim kəsilib, şizofrenik ruhda öz cinayətlərini davam etdirirlər, heç bir xətt, heç bir dəyər tanımırlar. Əllərinə bir saxta vəsiqə alaraq, mühacir roluna giriblər, özlərinin saxta və yazıq obrazını yaradıblar. Guya millət fədaisidirlər. Halbuki fəaliyyətlərində millət adına heç nə yoxdur. Konkret insanları hədəfə alıb təhqir edirlər, hədyanlar yağdırırlar, mənəvi terror törədirlər. Onlara rəvac verənlər isə radikal müxalifətin liderləri - Əli Kərimli kimi uğursuz siyasətçilərdir. Belə dəstəkçilərin fəaliyyəti də yenidən araşdırılmalı və onlar qanun və hüquq qarşısında cavab verməlidirlər.

**GÜLYANƏ**

# Oqtay Gülalıyev bank maxinatoruna kimin tapşırığı ilə qahmar çıxıb?



*Müxalifət funksioneri: “Əli Kərimlinin sağ əli Cahangir Hacıyevi müdafiə edir”*

***BAXCP-nin sədr müavini Niyaməddin Orduxanlı facebook səhifəsində maraqlı statusla çıxış edib. Müxalifətçi funksioner iddia edib ki, Azərbaycan Beynəlxalq Bankının keçmiş sədri Cahangir Hacıyevi və onun Böyük Britaniyaya qaçan həyat yoldaşı Zamirə Hacıyevanı müdafiə edənlər tapılıb və onlar AXCP sədri Əli Kərimlinin ən yaxın ətraflarıdır. Partiya sədrinin müavini, xüsusilə, hüquq müdafiəçisi Oqtay Gülalıyevin adını çəkib.***

Belə ki, “Milyonlar xərcləyən Z.Hacıyevanın əri C.Hacıyevi Ə.Kərimlinin sağ əli olan O.Gülalıyev müdafiə edir. Sizcə niyə?” sualını verən N.Orduxanlı hər zaman olduğu kimi, bu dəfə də radikal müxalifət təmsilçilərinin cinayətkarların yanında olmalarına, məhz cinayət törətmiş şəxsləri müdafiə etdiklərinə eyham vurub. Elə isə, gəlin Ə.Kərimlinin sağ əli O.Gülalıyevin kimi müdafiə etdiyini bir daha xatırlayaq.

### Zamirə Hacıyevanın da adı müxtəlif qanunsuz əməllərdə hallanmaqdadır

Xatırladaq ki, C.Hacıyev 20 may 2015-ci ildə ARDİN Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinə çağırılıb və ifadə verdikdən sonra sərbəst buraxılıb. 5 dekabr 2015-ci ildə C.Hacıyevə qarşı Cinayət Məcəlləsinin 178-ci (dələduzluq) maddəsi ilə cinayət işi açılıb və o, Nərimanov Rayon Məhkəməsinin qərarı ilə 4 ay müddətinə həbs edilib. C.Hacıyev və digər 7 nəfər Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 179.3.1, 179.3.2 (mütəşəkkil dəstə tərəfindən külli miqdarda mənimsəmə), 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə ağır nəticələrə səbəb olduqda), 309.2 (vəzifə səlahiyyətlərini aşma ağır nəticələrə səbəb olduqda), 313-cü (vəzifə saxtakarlığı), 228.1 və 228.4-cü (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə) maddələri ilə ittiham olunurdu. 14 oktyabr 2016-ci ildə Bakı Ağır Cinayətlər Məhkəməsi C.Hacıyevə hökm oxuyub. O, törətdiyi əməllərinə görə, 15 il müddətində azadlıqdan məhrumetmə cəzasına məhkum olunub və əlavə olaraq, Azərbaycan Beynəlxalq Bankının xeyrinə ondan 63 milyon manat, “AqrarKredit” ASC-nin xeyrinə 7 milyon manat tutulub verilməsinə qərar verilib. Məhkəmə araşdırmaları da göstərdi ki, C.Hacıyev 9 milyard ABŞ dollarından çox pulu bankın aktivindən çıxararaq, Azərbaycan Respublikasının büdcəsinə ziyan vurub. Bu məbləğ Azərbaycanın 2016-2017-ci il büdcəsində ümumdaxili məhsulun 25 faizinə bərabər idi. Bu da Azərbaycan manatının devalvasiyası səbəblərindən biri kimi göstərildi. Bildirilirdi ki, bankdan qanunsuz çıxarılan pullar C.Hacıyevin və ona yaxın olan şəxslərin və qohumların xaricdəki bank hesablarına köçürülürdü. Bu məsələlərdə onun həyat yoldaşı Z.Hacıyevanın da adı müxtəlif qanunsuz əməllərdə hallanmaqdadır. Təkcə, Böyük Britaniyada onun haqqında başladılmış araşdırmalar, qanunsuz əmlaklarının müsadirəsi də bu cür qənaətə gəlməyə zəmin yaradır. Məhkəmə materiallarından belə məlum olur ki, çirkli pulların yuyulması üçün saxta xərclər və gəlir layihələri irəli sürülürdü, eyni zamanda, kreditlər üçün təhlükəsizliyin təmin edilməsi üçün qondarma girovlar (istiqrazlar, zəmanətlər və s.) təqdim olunurdu.

### Əli Kərimlinin də çoxsaylı bank maxinasiyaları barədə çoxsaylı faktlar mövcuddur

Əgər nəzərə alsaq ki, AXCP sədri və ətrafı dövlətin nüfuzuna xələl vurmağa cəhd edən, fərqli iqtisadi və s. cinayətlər törədən insanları da zaman-zaman müdafiə edib, bu zaman onun bu kimi məsələdə maraqlarının olması da kimsədə şübhə doğurmur. BAXCP sədrinin müavini N.Orduxanlı da, məhz bu amili önə çəkərək, Ə.Kərimlinin, eləcə də, onun yanında olan O.Gülalıyevin çirkli oyun oynamalarına işarə edib. Belə ki, bu vaxta qədər Ə.Kərimlinin də bank maxinasiyaları barədə çoxsaylı faktlar mövcuddur və o da zamanında “Texnika Bank”ın məsul şəxslərindən olmuş qaynı vasitəsilə bir sıra maliyyə dələduzluqları törədərək, iri məbləğdə maddi vəsaitlər mənimsəyib. Maraqlıdır ki, Ə.Kərimli bu vaxta qədər ona qarşı irəli sürülmüş danılmaz ittihamarla bağlı ortada doğru-dürüst arqument qoya bilməyib.

N.Orduxanlının çox maraqlı iddiasına gəlincə, AXCP sədrinin vaxtilə C.Hacıyevlə gizli əlaqələrinin olması ehtimalı da həqiqətə söykənə bilər.

**Rövşən NURƏDDİNOĞLU**

## Qadından şantajla pul tələb edən şəxsə 8 il cəza verildi

Bakı Ağır Cinayətlər Məhkəməsində hədə-qorxu ilə tələb etməkdə təqsirləndirilən Astan Əzizovun cinayət işi üzrə məhkəmə iclası başa çatıb. Trend-in məlumatına görə, hakim Azad Məcidovun sədrliyi ilə keçirilən prosesdə təqsirləndirilən şəxsə hökm oxunub.

Məhkəmənin hökmü ilə A.Əzizov 8 il müddətinə azadlıqdan məhrum edilib. İttiham aktına əsasən, A.Əzizov tanışı olan qadını rüsvayedici məlumatlar yaymaqla şantaj edərək 4 min dollar pul tələb edib. Qadının şikayətindən sonra hüquq-mühafizə orqanları əməkdaşlarının keçirdikləri əməliyyat nəticəsində A.Əzizov saxlanılıb.

## Bakı şəhər sakinindən narkotik vasitə götürülüb

Bakı şəhər sakini E.Hüseynovdan marixuana götürülüb. DİN-dən Trend-ə verilən məlumata görə, Suraxanı RPİ 31-ci PB əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri ilə Bakı şəhər sakini Elçin Hüseynovdan 480 qram marixuana aşkar edilərək götürülüb.

# Ailə başçısının hüququ

***İslam dinində ailə başçısı hüququ, əsasən, kişilərə həvalə edilir. İlahiyyatçı Hacı Əbdürrəhman Yusifpur bu barədə belə deyir: "Bir qayda olaraq, hər bir yerdə olduğu kimi, ailədə də ağıllı, fərasətli başçıya ehtiyac vardır. Bu vəzifə, xüsusilə, kişilər tərəfindən daha bacarıqla həyata keçirilir. Çünki onlarda əqli düşüncə hissiyyatlardan daha üstündür. Allah-Taala buyurur: "Kişilər qadınların başçılarıdır, çünki Allah bəzi insanları, bir qism digər insanlar üzərində başçı müəyyən etmişdir".***

Qadınlar çətinliklərə də uyğunlaşmalıdırlar. Belə ki, əgər qadın xəstələnmişsə və kişi öz malını onun müalicəsinə sərf etmişsə, deməli, qadın da çətin vaxtlarda ona kömək etməlidir.

"Ərin qadın üzərində hüququ" əsərinin "Ailə başçısı" bölümündə H.Ə.Yusifpur göstərir ki, cəmiyyətdə nizam-intizam və qayda-qanun insanların inkişafında çox mühüm və təsirli amillərdən biri hesab edilir. Bu qanunları qəbul edən və onlara riayət edən hər bir cəmiyyət, şübhəsiz ki, mütərəqqi və xoşbəxt bir cəmiyyətdir. Bu məsələlərə laqeydlik göstərilməsi hərc-mərcliyə, narazılıqlara, narahatçılığa, ədalətsizliyə səbəb olacaq və saysız-hesabsız amillərə gətirib çıxaracaqdır.

Həzrət Əli (ə) öz həyatının son günlərində övladlarına və ardıcıllarına müraciət edərək buyurmuşdur: "Ey mənim Həsən və Huseynim, ey mənim ardıcıllarım, mömінlikdən sonra sizi qanun-qaydaları, nizam-intizamı qoruyub-saxlamağa dəvət edirəm".

Hər bir insanın ömrünün son anlarında etdiyi vəsiyyət onun yaşadığı ötən illər ərzində topladığı təcrübə ilə bağlıdır. Xüsusilə, insanlar son dərəcə yüksək səviyyə tutan milli və dini başçıların, böyük insanların vəsiyyətlərinə çox diqqət yetirirlər. İbadət edərkən, arxadan qılınc zərbəsi alan həzrət Əli (ə), nəinki özünü sındırmadı, əksinə, övladlarının və başqa şəxslərin suallarına xeyli yığcam cavablar verdi və onun sonuncu sözləri ki, biz onu Həzrət Əlinin (ə) vəsiyyətnaməsi adlandırırıq, həmin sözlər, məhz istər cəmiyyətdə, istərsə də ailə daxilində qayda-qanuna, nizam-intizama riayət olunmasını nəzərdə tutur. Onun fikrincə, bunlar cəmiyyətin və ailənin inkişaf amilləridir. Əksər məsələlərə bir qədər də dərindən nəzər salsaq, onda görərik ki, nizam-intizam digər ictimai məsələlərdə də böyük əhəmiyyətə malikdir. Hətta iki nəfərdən ibarət cütlüklər də belə nizam-intizama riayət etmədən xoşbəxt ola bilməz. Çünki həmin qaydalara əməl olunması, bilavasitə ailənin məhv olmasına gətirib çıxaracaqdır.

Ailə məhdud və kiçik bir cəmiyyət olmasına baxmayaraq, ictimai əhəmiyyəti baxımından ananın cəmiyyətdə rolunu öz öhdəsinə götürmüşdür. Çünki cəmiyyətin bütün qabiliyyətli, istedadlı insanları, məhz ailə daxilində dünyaya göz açmışdır. Buna görə də, yerli ailələrin bünövrəsi mütləq ailə qanunqaydaları əsasında qoyulmalıdır. Həmçinin, ailənin başçısı müəyyən edilməli və ailə üzvləri ictimai qaydalara riayət etməlidirlər.

Qeyd olunmalıdır ki, bütün milli və dövlət müəssisələri, təşkilatları, bütün şirkətlər, idarələr də başçıya və xüsusi əsasnaməyə malikdirlər. Həmin əsasnamədə bütün daxili iş qaydaları və qarşılıqlı münasibətlər öz ifadəsini tapmışdır. Odur ki, bunlardan daha dəyərli, daha həssas olan ailə qayda-qanunsuz və başçısız öz rolunu davam etdirə bilməz. Buna görə də, hər bir ailədə də əqli qabiliyyəti üstün olan və rəhbərlik etməkdən, habelə, ictimai məsələlərdən yaxşı baş çıxaran şəxslər həmin məsuliyyətli və mühüm vəzifəni öz öhdəsinə götürməlidirlər.

H.Ə.Yusifpur "İslamda ailə üzvlərinin hüquqları" əsərində "Kişi ailə başçısı ola bilərmi?" bölümündə yazır:

"Bilirik ki, ərlə qadın birlikdə ailə başçısı vəzifəsini öz öhdələrinə götürə bilməzlər. Çünki bu cür rəhbərliyin nəticəsi ailədə hərc-mərcdiyə geriliyə səbəb ola bilər. Çünki belə bir vəziyyətdə iki müxtəlif düşüncə tərzinə və səliqəyə malik olan şəxs ailədə hakim olacaqlar. Bundan əlavə, onların hər ikisi ailəyə başçılıq etmək kimi, mühüm və məsuliyyətli bir vəzifəni öz öhdəsinə götürməyəcək və ailənin müxtəlif işlərini bir-birlərinin üstünə atacaqlar. Bu halda, əlbəttə ki, ailədə heç bir uğur əldə edilməyəcəkdir.

Başqa bir fikir də vardır. Bu da qadının ailə başçısı olmasıdır. Bunun üçün qadının təbii xüsusiyyətləri araşdırılmalıdır. Görəsən, qadınlar ailəyə başçılıq edə bilərlərmi? Bunun cavabında deyəcəyik: "Qadınların bəzi məsələlərdə müəyyən üstünlüklərə malik olmalarına baxmayaraq, onların əxlaqi və fiziki keyfiyyətlərinin araşdırılması göstərir ki, qadınlar ailə başçısı səlahiyyəti baxımından kişilərlə ayaqlaşa bilməzlər. Bundan əlavə, qadın təbiəti elədir ki, onların özləri də ikinci bir şəxsin nəzarəti altında idarə olunmağı tələb edirlər".

Məşhur psixoloqlardan biri olan xanım Klif Dolson deyir: "Mən, xüsusilə, kişilərin ruhi amillərinin öyrənilməsinə böyük diqqət yetirirəm. Odur ki, mənə tapşırılmışdı ki, qadınların və kişilərin ruhi amillərinin araşdırılması ilə məşğul olum, həmin təhqiqat zamanı belə bir nəticəyə gəldim: "Bütün qadınlar başqa bir şəxsin nəzarəti altında işləməyə meyillidirlər, yəni onlar rəisin nəzarəti altında işləməyi xoşlayırlar. Bütün qadınlar həmişə özlərinin nəyəsə ehtiyacı olduğunu düşünürlər. Bütün bunlardan sonra belə bir nəticəyə gəldim ki, qadınlar hissiyyata, kişilər isə ağıla tabedirlər".

Yuxarıda deyilənlərdən əlavə, qeyd etmək lazımdır ki, heyvanlar üzərində aparılan təhqiqatlar göstərir ki, dişi heyvanlar həmişə öz cinslərindən olan erkək heyvanlara hörmət edirlər, onların güc və qüvvəsindən zövq alırlar. Dişi heyvanlar erkək heyvanlarla rəqabət məsələsində, onlara təslim olurlar. Odur ki, onların münasibətləri də ərlə arvad münasibətinə bənzəyir və başqa bir erkək heyvana yaxınlıq edən dişi heyvan öz erkəyi tərəfindən cəzalandırılır.

Üçüncü fikir budur ki, kişilər ailə başçısı vəzifəsini öz öhdələrinə götürür və ailə qanunlarına müvafiq olaraq, tam ədalətlə ailəni idarə edirlər. Bu fikri təsdiq edən ayə və rəvayətləri sizin diqqətinizə təqdim edirik!

Allah-Taala buyurmuşdur: "Kişilər Allah-Taala tərəfindən onlara verilmiş imtiyaz və üstünlüklərə malik olduqlarından, öz qadınlarının başçısı və onların xidmətçiləridirlər. Bundan əlavə, kişilər, eyni zamanda, öz qadınlarının xərclərini təmin edirlər".

Mərhum Təbatəbai bu ayə barədə yazır: "Bu ayədə, nəinki kişinin qadın üzərindəki başçılığı öz əksini tapmışdır, bundan əlavə, bu ayə daha bir mənaya malikdir. Bu da, ondan ibarətdir ki, kişilər ictimai məsələlərdə də qadınların məsələlərinin idarə olunması məsuliyyətini daşıyırlar. Bu baxımdan da, kişilər qadınlardan üstündürlər. Buna görə də ən mühüm içtimai işlər, o cümlədən, dövlət məsələləri, məhkəmə, müharibə və müdafiə məsələlərinin məsuliyyəti, məhz kişilərin öhdəsinə düşür".

Peyğəmbər (s) buyurmuşdur: "Özünün bütün işlərinin idarə edilməsini qadınlara həvalə edən adamlar, əsla, xoşbəxtlik tapmazlar".

Peyğəmbər (s) buyurmuşdur: "Qadınlara tabe olmaq və onların ardınca getmək insana peşimançılıq gətirər".

Həzrət Əli (ə) buyurmuşdur: "Qadına tabe olan və onun hökmü altında yaşayan hər bir kəs məlundur".

Peyğəmbər (s) buyurmuşdur: "Kişi ailənin bütün üzvlərinin məsuliyyətini və onlara rəhbərliyi öz öhdəsinə götürür, amma qadın da evin daxili işlərinin idarə olunmasında mühüm rol oynayır və evin işləri "ev xanımının" nəzarəti altında yerinə yetirilir".

Bütün yuxarıda qeyd edilən ayələrdən, rəvayətlərdən və müxtəlif alimlərin fikirlərindən belə bir nəticəyə gəlirik ki, qadınlar ərlərindən sonra ailədə başçı funksiyasını yerinə yetirə bilərlər. Yəni onlar, daha dəqiq desək, "müavin" rolunu oynayırlar.

Əlbəttə, bəzən biz, öz ərindən daha bacarıqlı, daha ağıllı olan qadınlarla da rastlaşırıq. Amma qeyd etmək lazımdır ki, bu fərdi haldır və buna görə də, islam qanunları qadınların, hətta bu cür hallarda da, ər üzərində rəhbər funksiyaya malik ola bilməsinə yol vermir.

Bütün bunlarla yanaşı, islam dini qadınların bir sıra məsələlərdə, o cümlədən, övlad tərbiyəsi, evdarlıq və bir sıra digər məsələlərdə kişilərdən üstün olduqlarını nəzərə çarpdırır. Odur ki, kişilər bu kimi məsələlərdə qadınları ilə məsləhətləşmələr apara bilərlər.

Əsərinin "Qadınlar xoşbəxtliyin təminatçısıdır" bölməsində H.Ə.Yusifpur yazır ki, Allah-Taala öz bəndələrinin rifah və rahatlığı naminə xeyli sayda nemətlər yaratmışdır ki, onları saymaqla qurtarmaz. Heç bir tərəddüd etmədən, qeyd etmək olar ki, yaxşı və layiqli həyat yoldaşı həmin qeyd edilən nemətlərdən ən yaxşısı və ən dəyərlisidir. Bu ilahi vergi o qədər böyük və mühümdür ki, Həzrət İmam Sadiq (ə) onların rolunu və dəyərini qızıl-gümüşdən daha qiymətli hesab etmişdir.

Həzrət İmam Sadiq (ə) başqa bir rəvayətdə isə, yaxşı xarakterli və doğruçul həyat yoldaşını bütün yaxşılıqların və xoşbəxtliklərin açarı kimi təqdim etmişdir. Qurani-məcidin buyurduğuna görə, yaxşı həyat yoldaşı həyatın və ürəklərin rahatlığının əsası, səadət və xoşbəxtliyin mayasıdır. Və insan belə bir nemətə malik olmadan, həqiqətən də, şadlana bilməyəcək və psixoloji rahatlıq əldə edə bilməyəcəkdir. Necə ki, İmam Baqir (ə) buyurmuşdur: "Mən demirəm ki, dünyada hər nə varsa, mənim olsun, mən istəyirəm ki, bir gecə belə həyat yoldaşı olmadan yaşamayım".

İmam Sadiq (ə) demişdir: "İnsanın əsas xoşbəxtlik amillərindən biri budur ki, layiqli həyat yoldaşına malik olsun".

Peyğəmbər (s) "Məkarimül-əxlaq"ın 200-cü səhifəsindəki hədisdə buyurur ki, yaxşı qadın islamdan və Allaha etiqaddan sonra ən böyük ilahi nemətlərdən biri sayılır və Allah-Taala bu neməti müsəlmanların ixtiyarına vermişdir ki, əri onu görəndə, şadlıq hissi keçirsin. Qadın da ərinin hər bir buyruğuna can-başla riayət etsin, hətta əri evdə olmayanda, özünü özgələrdən və ərinin mal-dövlətini soyğunçulardan qorusun. Bu rəvayətdə, bir daha görürük ki, yaxşı və layiqli həyat yoldaşı hər bir insanın səadətinin və xoşbəxtliyinin açarıdır. Yaxşı və layiqli qadın islam dinindən və etiqaddan sonra ən dəyərli nemətdir. Çünki yaxşı və layiqli qadın ərinin qulluğunda durmaqla, ona mehr və məhəbbət göstərməklə, övladlarını tərbiyə edib, boya-başa çatdırmaqla, həqiqətən də, ərini hər bir sahə baxımından, xoşbəxtliyə çatdıra bilər.

Tarixdə bu məsələ ilə bağlı xeyli sayda nümunələr olmuşdur. O cümlədən, Xədicə də bütün varlığıyla, etiqadıyla Peyğəmbərin (s) dayağı olmuş və ömrünün son anlarınadək Onun razı qalmasına çalışmışdır.

Peyğəmbərin (s) qızı Fatimeyi-Zəhra (ə) da ərinə qarşı o qədər fədakarlıq göstərmişdir ki, dünyada onun misli-bərabəri yoxdur.

Burada bu cür fədakarlıq göstərmiş qadınlardan biri barədə danışmaq istəyirəm. Bu qadın Əmir Qeysin qızı və İmam Hüseynin (ə) həyat yoldaşı Rübabədir. Rübabə öz əri İmam Hüseynə (ə) aşiq olmuş və bütün varlığıyla ona bağlı olan bir qadın olmuşdur. O, imama hədsiz aşiq olmuş və onu da özünə aşiq etmişdi. Hətta elə bir vəziyyət yaranmışdı ki, Rübabə İmamın yanında olmayanda və ya müəyyən müddətə başqa bir yerə gedəndə, İmam Hüseyn (ə) ayrılığa dözə bilmirdi. Belə hallarda İmam Hüseyn (ə) deyərdi: "Qızım Səkinə və həyat yoldaşım Rübabə qohumlarını görməyə gedəndə, həmin gecə mənim üçün o qədər uzun görünürdü ki, sanki bu gecə başqa gecələrə birləşmişdi və onun sonu yoxdur. Öz canıma and olsun ki, mən o evi sevirəm ki, qızım Səkinə və həyat yoldaşım Rübabə həmin evdə mənim yanımda olsunlar".

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

## Dubay Əmirinin təşəbbüsü ilə elektron mədrəsə işə salınıb

Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti və Baş naziri, Dubay Əmiri Şeyx Məhəmməd bin Rəşid Al Maktumun təşəbbüsü ilə ərəb dünyasında ən böyük elektron təhsil platforması - elektron mədrəsə işə salınıb. AZƏRTAC yerli KİV-lərə istinadla xəbər verir ki, "Məhəmməd bin Rəşid Al Maktumun qlobal təşəbbüsləri" Fondunun unikal inqilabi layihəsi olan mədrəsə bütün dünyada 50 milyondan çox ərəb tələbəyə ərəb dilində pulsuz tədris materialları təqdim edir. Müxtəlif fənlər, o cümlədən riyaziyyat fənni üzrə 5 min maarifləndirici videoçarx istifadəyə verən platforma uşaq bağçasından tutmuş məktəbin buraxılış sinfinədək müxtəlif yaşlı şagirdlər üçün nəzərdə tutulub.

## Bəzi xəstəliklər zamanı isti vanna qəbul etmək yolverilməzdir

Soyuqdəyməyə qarşı mübarizə formalarından biri kimi ayaqların isti vannaya qoyulmasından istifadə edilir. Bu, nə dərəcədə doğrudur? Paytaxtdakı 19 nömrəli poliklinikanın həkim-terapevti Gülnarə Məmmədova bu barədə AZƏRTAC-a deyib: "Varikoz genişlənmə, tromboflebit olduqda ayaqların isti vannaya qoyulması xəstəliyin inkişaf etməsi ilə yanaşı, yeni problemlərin yaranmasına da səbəb ola bilər. Böyrək xəstəlikləri zamanı da ayaqları isti suya qoymaq məsləhət görülmür. Bundan əlavə, şəkərli diabet səbəbindən ayaqlarda meydana çıxan yaralar varsa, isti vanna qəbulu yolverilməzdir".

Həkim-terapevt, sadəcə, soyuqdəyməyə qarşı isti vanna qəbulu zamanı xardal yağından istifadə etməyin faydalı olduğunu bildirib. Lakin həmin prosedur zamanı suyun temperaturu təxminən 37-38 dərəcə olmalıdır.

## Soyuq fəsillərdə mütləq xardal yeyin!

Mütəxəssislər soyuq fəsillərdə daha çox xardal yeməyi tövsiyə edirlər. Xardalın tərkibində olan maddələr bəlğəmgətirici və iltihabəleyhinə təsirə malikdir. Həmçinin xardal immun sisteminin fəaliyyətini stimullaşdırır. Məhz bu xüsusiyyətlərə görə xardal öskürək və soyuqdəymə xəstəlikləri zamanı çox faydalıdır. Saglamolun.az Rusiya KİV-lərinə istinadla xəbər verir ki, xardal beyin qan dövranını və beyinin fəaliyyətini yaxşılaşdırır. Metabolizmi aktivləşdirən xardal piylərin parçalanmasını sürətləndirir ki, bu da arıqlamağa kömək edir. Xardal damarların sağlamlığına da müsbət təsir edir - damarları təmizləyir, möhkəmləndirir, onların elastikliyini artırır. Xardal güclü afrodiziakdır, qadın və kişilərdə libidonu (cinsi meyl) artırır. Xardalı istənilən ət yeməkləri, kartof qızartması ilə yemək olar.

## ELAN

ADPU-nun Kimya müəllimliyi ixtisası üzrə III kurs tələbəsi Hüseynova Aytac Afiq qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

* * *

Azərbaycan Dövlət İqtisad Universitetinin Texnologiya və dizayn fakültəsinin dizayn ixtisasının I kurs tələbəsi Rüstəmzadə Çiçək Əlvan qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

* * *

Azərbaycan Dövlət İqtisad Universitetinin Texnologiya və dizayn fakültəsinin dizayn ixtisasının I kurs tələbəsi Bayramlı Nigar Nazim qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

* * *

Bakı şəhəri Suraxanı rayonu, Yeni Suraxanı qəsəbəsi Kalinin küç. ev 1 ünvanında yaşayan Xəlilova Günay Novruz qızına məxsus kupça (çıxarış), texpasport, varəsəlik itdiyi üçün etibarsız sayılır.

* * *

Sona Mahüseyn qızına məxsus Bakı şəhəri, Xəzər rayonu, Xaşa-Xuna bağ massivinin 137 nömrəli BTK nəzdində olan sahəyə tərtib edilmiş order və digər sənədlər itdiyi üçün etibarsız sayılır.

* * *

Bakı şəhəri Suraxanı rayonu "ASAN Xidmət" 4 tərəfindən verilmiş Salamova Mələk Kamran qızına məxsus doğum haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

# Azərbaycan şahmatçısı "Isle of Man International" turnirində iştirak edəcək



Oktyabrın 20-də Men adasının paytaxtı Duqlasda üç qrupda keçiriləcək "Isle of Man International" turnirinə start veriləcək. AZƏRTAC xəbər verir ki, güclü şahmatçıların "Masters" turnirində 167 oyunçu, o cümlədən 92 qrossmeyster və Azərbaycan təmsilçisi Arkadi Naydiçin də daxil olduğu 20 "yeddiyüzçü" iştirak edəcək. Turnirdə, həmçinin hollandiyalı Aniş Giri, fransız Maksim Vaşye-Laqrav, rusiyalı Vladimir Kramnik, amerikalı Uesli So, hindistanlı Vişvanatan Anand və digər tanınmış şahmatçılar mükafatlar uğrunda mübarizə aparacaqlar. Turnirin birinci mükafatı 50000, qadın şahmatçılar üçün isə 7000 funt sterlinqdir. Men adası turniri İsveçrə sistemi üzrə 9 turdan ibarət olaraq keçiriləcək.

# UEFA PSJ-ni 20 min avro cəriməyəlib



**UEFA** Fransanın "Pari Sen-Jermen" (PSG) klubunu Çempionlar Liqasının qrup mərhələsində Serbiyanın "Red Star" komandası ilə keçirdiyi matçda yaşananlarla əlaqədar 20 min avro məbləğində cərimələyib. Bununla yanaşı, hər iki komandanın azarkeşlərinin səbəb olduğu hadisələrlə bağlı əlavə araşdırmanın aparılması qərara alınıb. Bu barədə UEFA-nın saytında məlumat verilib.

"PSG"nin cərimələnməsinin əsas səbəbi oyunun gec başlaması olub. Komandanın baş məşqçisi Tomas Tüxelə bu barədə xəbərdarlıq edilib. Parislilərə qarşı, həmçinin oyun zamanı azarkeşlər tərəfindən pirotexniki vasitələrdən istifadə və klub nümayəndələrinin uyğun olmayan davranışları ilə bağlı da iddialar irəli sürülüb. UEFA-nın "Red Star" klubunun azarkeşlərinin davranışları ilə bağlı da müəyyən ölçü götürəcəyi gözlənilir. Bununla əlaqədar oyunda baş vermiş hadisələri və hər iki komandanın azarkeşlərinin davranışlarını araşdırmaq üçün müfəttişin təyin olunması qərara alınıb. Xatırladaq ki, oktyabrın 3-də Parisdə keçirilən həmin qarşılaşma ev sahiblərinin 6:1 hesablı qələbəsi ilə başa çatıb.

# Voleybol üzrə dünya çempionatının finalçıları məlum olub




Qadın voleybolçular arasında Yaponiyada keçirilən dünya çempionatında finalçılar müəyyənləşib. AZƏRTAC xəbər verir ki, yarımfinalda Çin yığmasını 3:2 hesabı ilə məğlub edən İtaliya millisi həlledici görüşə vəsiqə qazanıb. İtaliyalıların rəqibi Hollandiya komandası ilə görüşdən 3:1 hesablı qələbə ilə ayrılan serbiyalılar olacaq. Oktyabrın 20-də keçiriləcək final matçı Bakı vaxtı ilə saat 14:40-da, Çin və Hollandiya arasında bürünc medal uğrunda oyun isə həmin tarixdə saat 12:20-də başlayacaq. Qeyd edək ki, Azərbaycan milli komandası dünya çempionatının II mərhələsində mübarizəni dayandırıb. Faiq Qarayevin baş məşqçisi olduğu kollektiv 24 ölkə arasında 15-ci yeri tutub.

# "Spartak" azərbaycanlı futbolçuya görə 1 milyon avro təklif edir



"Rostov"un yarımmüdafiəçisi Ayaz Quliyev yenidən "Spartak"da çıxış edə bilər. Qol.az-ın Rusiyanın don24.ru saytına istinadən yaydığı xəbərə görə, Moskva təmsilçisi sabiq futbolçusunu heyətinə cəlb etmək istəyir. "Qırmızı-qaralar"ın azərbaycanlı oyunçunun keçidi üçün 1 milyon avro ödəməyə hazır olduğu bildirilir. "Spartak" Ayazı son vaxtlar adı qalmaqallarda çəkilən Denis Qluşakovla əvəzləmək niyyətindədir. Qeyd edək ki, Ayaz Quliyev bu ilin yanvarında "Spartak"dan "Rostov"a keçib. Rusiyanın U-21 yığmasının da üzvü olan yarımmüdafiəçinin əsas millimizə cəlb olunması gündəmdədir.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.**
**"Azərbaycan" nəşriyyatında çap olunur**
***Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**